S.M.YAQUBOV
Ə.İ.ƏLİYEV

# SOSİAL-İQTİSADİ STATİSTİKA
(məsələlər külliyyatı)

$\sqrt{X}$

$p_1 q_1$

$$I_p = \frac{\sum \frac{p_1}{p_0} \cdot p_0 \cdot q_0}{\sum p_0 \cdot q_0}$$

$$\sqrt[n-1]{\frac{y_n}{y_0}}$$

$$\sigma = \sqrt{\frac{\sum (x - \overline{x})^2 f}{\sum f}}$$

$$i_q = \frac{q_1}{q_0}$$

E. Ж.

S.M.YAQUBOV , Ə.İ.ƏLİYEV

İqtisad elmləri doktoru, professor
S.M.Yaqubovun ümumi redaktorluğu ilə

# Sosial-iqtisadi statistika fənnindən məsələlər külliyatı

Azərbaycan Dövlət İqtisad
Universiteti Elmi-Metodik Şurası
tərəfindən 26 may 2001-ci il tarixdə
(protokol № 5) təsdiq olunmuşdur

BAKI - 2003

Rəy verənlər: 1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Sədr müavini M.H.Hacıyev;

2. Statistika kafedrasının dosenti, iqtisad elmləri namizədi M.İ.Nəcəfov.

## GİRİŞ

Müasir dövrdə iqtisadiyyatın idarə edilməsində statistika mühüm rol oynayır. O, ölkənin sosial-iqtisadi inkişafını xarpakterizə edən informasiyanın yığılmasını, elmi işlənməsini, ümumiləşdirilməsini və təhlilini həyata keçirir. Ona görə də iqtisadi təhsil sistemində fundamental elm kimi statistikanın öyrənilməsinə xüsusi fikir verilir.

Bazar münasibətlərinə keçidin müasir mərhələsində statistikanın əsaslı surətdə təkmilləşdirilməsi və beynəlxalq qaydalara uyğunlaşdırılması kimi mühüm məsələlər həyata keçirilir. Bu isə yüksək ixtisaslı iqtisadçıların hazırlanmasının keyfiyyətcə yaxşılaşdırılmasını tələb edir. Bununla əlaqədar olaraq son illərdə tədris planlarında və proqramlarında əhəmiyyətli yeniliklər edilmişdir. Belə xarakterli məsələlərdən biri tələbələrin müasir dövrün tələblərinə uyğun kitablarla və tədris metodiki vəsaitlərlə təmin edilməsidir. Onu da qeyd edək ki, bu günə qədər qeyd edilən məsələlərin həlli istiqamətində mühüm işlər görülmüş və görülməkdədir. Oxucu auditoriyasına təqdim edilən bu metodik vəsait həmin niyyətlə yazılmışdır.

Metodik vəsait AzDİU-nun "Statistika" kafedrasında hazırlanıb Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş 2002-ci ildə nəşr edilmiş "Sosial-iqtisadi statistika" fənninin proqramına uyğun yzılmışdır.

Metodik vəsaitdə 12 mövzu üzrə sosial-iqtisadi statistikanın ən müxtəlif məsələləri öz əksini tapmışdır.

Metodik vəsait bakalavar pilləsində təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

## Mövzu1. Sosial-iqtisadi statistikanın predmeti, metodu, vəzifələri və göstəriciləri sistemi

1.11 avqust 1992-ci ildə Respublika prezidentinin imzaladığı fərman nəyi nəzərdə tuturdu?

a) Azərbaycan Respublikasında beynəlxalq praktikada qəbul edilmiş uçot və statistika sisteminə keçilməsini;
b) Azəbaycan Respublikasında beynəlxalq praktikada qəbul edilməmiş standartlaşdırma sisteminə keçilməsini;
c) Azərbaycan respublikasında beynəlxalq praktikada qəbul edilmiş təsnifatlaşdırma sisteminə keçilməsini;

2. Kütləvi sosial-iqtisadi hadisələrin kəmiyyət tərəfini keyfiyyət tərəfi ilə sıx əlaqədə, yəni müəyyən keyfiyyətli kəmiyyəti və onda baş verən qanunauyğunluqları öyrənən elmə nə ad verilir ?
a) Riyaziyyat; b) Sosial-iqtisadi statistika; c) Sosial-mənəvi statistika;

3.Sosial-iqtisadi statistikanın nəzəri əsasını nə təşkil edir?

a) Kimya; b) İqtisadi nəzəriyyə; c) Riyaziyyat, Coğrafiya;

4.Aşağıdakılardan hansı sosial-iqtisadi statistikanın vəzifələrindən hesab edilir?



a) Respublikanın sosial-iqtisadi vəziyyətini hərtərəfli işıqlandırmaq;
b)Dövlət idarəetmə strukturlarının informasiyaya olan tələbatını ödəmək;
c) Bunların hamısı;

5.Öyrənilən hadisələrin məcmu vahidlərini müəyyən meyarlar (əlamətlər) əsasında yekcins qruplara və siniflərə ayırmaqla informasiya materiallarının kodlaşdırılması (şiriflənməsi) və nizama salınması imkanını təmin etməkdən ötrü statistikada nədən istifadə olunur ?

a) Təsnifatlaşdırmadan; b) Qeyri-müntəzəmlikdən; c) Təcridlilikdən;

6. Hüquqi şəxs olub özünün maddi və maliyyə ehtiyatlarına müstəqil qərar qəbul edən və sərəncam verən vahidə statistikada nə ad verirlər?
7.
a) İnstitusion vahid; b) Şəxs; c) Bircinsli vahid;

7. İqtisadiyyatda sahələr üzrə qruplaşdırmanı nə məqsədlə həyata keçirirlər?

a)Maliyyə aktivlərini və passivlərini öyrənmək üçün;
b) Gəlir və xərclər axınını öyrənmək üçün;
c) Məhsul və xidmətlər ehtiyatı və istifadəsi arasındakı balansı və istehsal prosesini öyrənmək üçün;

8. Maliyyə aktiv və pasivlərini, gəlir və xərc axınlarını öyrənməkdən ötrü hansı qruplaşdırmadan istifadə edilir?
a) İqtisadiyyatın sektorlar üzrə qruplaşdırılmasından;
b) İqtisadiyyatın ərazi üzrə qruplaşdırılmasından;
c) İqtisadiyyatın coğrafi bölgüsündən;

9.İnstitusional vahidlərin sektorlarda birləşdirilməsi nəyə görə həyata keçirilir?

a) İqtisadi davranışın tipinə görə;
b) İqtisadi subyektlərin sayına görə;
c) İqtisadi subyektlərin əlaqəsinə görə;

10.Verilənlərdən hansılar bütün iqtisadiyyatı əhatə edən institusional vahidlərin birləşdirildiyi sektorlara aid edilir?

a) Qeyri-maliyyə müəssisələri, maliyyə təşkilatları, dövlət idarə orqanları;
b) Ev təsərrüfatları, ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatları, xarici iqtisadi əlaqələr;
c) Bunların hamısı;

11. Öyrənilən sosial-iqtisadi hadisənin həcmini və miqdar nisbətlərin əks etdirən kateqoriyaya statistikada nə ad verirlər ?

a) Statistika göstəricisi; b) Statistika təsnifatı; c) Statistika planı;



12. Beynəlxalq standart sahə təsnifatı (BSST) neçə bölmədən ibarətdir ?

a) 10; b) 17; c) 20:

## Mövzu 2. Əhali statistikası

1.Əhali sahəsində baş verən demoqrafik hadisələrin kəmiyyət və keyfiyyət tərəfini öyrənməklə, onların inkişaf qanunauyğunluqlarını aşkar edən elmə nə ad verilir ?

a) Əhali staistikası; b) Riyazi statistika; c) Ekonometrika;

2.1999-cu ildə Azərbaycan Respublikasında əhalinin orta illik sayının 8016.2 min nəfər, il ərzində doğulanların sayının 119.4 min nəfər olduğunu bilərək ümumi doğum əmsalını hesablayın:

a) 14.9‰; v) 20.5‰; c) 14.0‰;

3.1999-cu ildə Azərbaycan Respublikasında əhalinin orta illik sayının 8016.2 min nəfər, il ərzində cışkışmjk sayının 47.3 min nəfər olduğunu bilərək ümumi ölüm əmsalını hesablayın:

a) 5.9‰; b) 5.0‰; c) 5.4‰;

4. 1998-ci ildə Azərbaycan Mdnlöbıjianxkğada ümumi doğum əmsalının15.7‰, ümumi ölüm əmsalının 5.9‰ olduğunu bilərək əhalinin təbii artım əmsalını hesablayın:

a) 9.8‰; v)9.0‰; c)8.0‰;



5.1999-cu ildə Azərbaycan Mdnlöbıjianxk da ümumi nigah əmsalının 4.8‰,əhalinin orta illik sayını 8016.2 min nəfər olduğunu bilərək bağlanmış nigahların sayını hesablayın:

a) 38.5 min, v) 39.0 min, c) 36.6 min;

6. 1997-ci ildə Azərbaycan Respublikasın da qeydə alınmış nigah pozulmalarının sayı 5.8 min, 1999-cu ildə isə 5.0 min olmuşdur. 1997-ci ilə nisbətən 1999-cu ildə Azərbaycanda qeydə alınmış nigah pozulmalarının sayı:

a) 13.8% artmışdır; b) 13.8% azalmışdır; c) 12.0% artmışdır;

7.Əhalinin sayı ilin əvvəlinə və axırına verilərsə onun orta illik sayı orta kəmiyyətin hansı düsturu ilə hesablanır ?

a) Sadə hesabi orta kəmiyyət; b) Xronoloji orta kəmiyyət; c) Çəkili hesabi orta kəmiyyət;

8. 2000-ci ildə Azərbaycan Mdnlöbıjianxkğa əhalinin sayının 8016.2 min nəfər, kişilərin sayının 3913.8 min nəfər olduğunu bilərək kişilərin ümumi əhalidə xüsusi çəkisini hesablayın:

a) 48.8%; v) 48.0%; c) 50.2%;

9. 2000-ci ildə Azərbaycan Mdnlöbıjianxkda şəhər əhalisinin ümumi əhalidə xüsusi çəkisinin 51.0% olduğunu bilərək, kənd əhalisini xüsusi çəkisini hesablayın:

a) 49.0%; v) 52.0%; c) 48.2%:

Aşağıdakı şərti məlumatlar verilmişdir:

| Göstəricilər | 2000 | 2001 |
|---|---|---|
| Əmək qabliyyətli yaşdan çavan | 2694.6 | 2716.0 |
| Əmək qabliyyətli yaşda | 4515.4 | 4561.6 |
| Əmək qabliyyətli yaşdan yuxarı | 743.4 | 738.6 |

Bu məlumatlara əsasən hesablayın (22, 23):

10. 2000 və 2001-ci illər üçün əmək qabliyyətli yaşda olan əhalinin çavanlarla demoqrafik yüklənmə əmsalını:

a) 597 və 595 nəfər; b) 500 və 600 nəfər; c) 450 və 865 nəfər;

11. 2000 və 2001-ci illər üçün əmək qabdiyyətli yaşda olan əhalinin qocalarla yüklənmə əmsalını:

a) 165 və 162 nəfər, b) 160 və 159 nəfər, c) 120 və 150 nəfər;



12. Aşağıdakı variantlardan düzgün olanını göstərin:

a) Daimi əhalinin sayını tapmaq üçün mövcud əhalidən müvəqqəti yaşayanları çıxıb müvəqəti qaiblər əlavə edilir,
b) Mövcud əhalinin sayını tapmaq üçün daimi əhalinin üzərinə həm müvəqqəti qaibləri, həm də müvəqqəti yaşayanları əlavə edirlər,
c) Daimi əhalinin sayını tapmaq üçün mövcud əhalinin sayına müvəqqəti yaşayanların sayını əlavə edirlər;

13. Əhalinin ölkə ərazisində və ölkələr arasında hərəkətinə statistikada nə ad verirlər?

a) Əhalinin təbii hərəkəti; b) Əhalinin mexaniki hərəkəti; c) Əhalinin nigah prosesi;

14. Aşağıdakılardan hansı əhalinin təbii hərəkətinin ünsürləridir?

a) Doğum, ölüm, nigah və boşanma, b) Doğum, emmiqrasiya; c) Ölüm, immiqrasiya;

Aşağıdakı şərti məlumat verilmişdir:

| İllər | Əhalinin sayı (min nəfər) | Gedənlər (nəfər) | Gələnlər (nəfər) |
|---|---|---|---|
| 1997 | 7799.8 | 35530 | 7528 |
| 1998 | 7876.7 | 10500 | 5404 |

Cədvəlin məlumatı əsasında hesablayın (27,28,29):

15. 2000 və 2001 -ci illər üçün ümumi gəlmə əmsalını:

a) 1.0‰ və 0.7‰; b) 1.5‰ və 0.9‰; c) 1.0‰ və 0.5‰:

16. 2000 və 2001-ci illər üçün ümumi getmə əmsalını:

a) 4.6‰ və 1.3‰; b) 4.2‰ və 1.2‰; c) 4.6‰ və 1.1‰;

17. Hər bir il üçün miqrasiyanın saldosunu:

a) -28002 və -5096 nəfər; b) -28010 və -5106 nəfər; c) 28112 və -5605 nəfər:

18. 2000-ci ildə əhalinin ümumi gəlmə əmsalının 4.6‰, ümumi getmə əmsalının 1.0‰ olduğunu bilərək əhalinin mexaniki artım əmsalını hesablayın:

a) 3.6‰, b) 3.2‰, c) 3.5‰

19. Ümumi qəbul edilmiş qaydaya uyğun olaraq əhalinin siyahıyaalınması neçə ildən bir keçirilir?

a) 5; b) 8; c)10;

20.2001-ci ilin əvvəlinə "A" bölgəsində əhalinin sayının 7065.7 min nəfər, doğulanların sayının 124.7



min nəfər, ölənlərin sayının 37.8 min nəfər, gələnlərin sayının 6.5 min nəfər, gedənlərin sayının isə 34.6 min nəfər olduğunu bilərək ilin sonuna əhalinin sayını hesablayın:

a) 7124.5 min nəfər; b) 7128.5 min nəfər; c) 7035.6 min nəfər:

## Mövzu.3 Məşğulluq və işsizlik statistikası

1.İqtisadi fəal əhali ilə iqtisadi - qeyri fəal əhalinin cəminə nə ad verirlər?

a) Əmək etiyatları; b) Fəhlələr; c) Əmək ödənişi;

2. Həm ailənin, həm də cəmiyyətin himayəsində olan, habelə öz qənaətləri ilə yaşayan şəxslər hansı əhali qrupuna aid edilir?

a) Passiv əhaliyə; b) İqtisadi fəal əhaliyə; c) Hər ikisinə;

3. İşsizlərin sayının iqtisadi fəal əhalinin sayına faiz nisbəti nəyi anladır?
a) İşsizliyin səviyyəsini; b) Məşğulluğun səviyyəsinin; c) İşsizliyin artım sürətinin;

4. İqtisdiyyatda məşğul olanlarla hərbi qulluqçuları və işsizləri cəmlədikdə alınan əhali qrupu necə adlanır?

a) İqtisadi fəal əhali; b) Passiv əhali; c) Qoca əhali;

5. Muzdla və muzdsuz işləyən bütün şəxslər nəyi anladır?



a) İqtisadiyyatda məşğul olanları; b) İqtisadiyyatda məşğul olmayanları; c) Qoca əhalini;

6. İqtisadi fəal əhalinin sayının ümumi əhalinin sayına nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Aktivlik əmsalı; b) İşsizlik əmsalı; c) Məşğulluq əmsalı;

7. Məşğul əhalinin sayı ilə orduda çalışanların sayının fəal iqtisadi əhaliyə nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Məşğulluq əmsalı; b) İşsizlik əmsalı; c) Sosial yüklənmə əmsalı;

Aşağıdakı şərti məlumatlar verilmişdir (min nəfər):

1.Məşğul əhalinin sayı - 400;
2.İşsizlərin sayı - 60;
3.Orduda çalışanların sayı - 40;
4.Əhalinin umumi sayı - 2000;
5.Passiv əhali - 30;

Bunlara əsasən aşağıdakıları hesablayın (8-12):

8. İqtisadi-fəal əhalinin sayının:

a) 500 min nəfər; b) 600 min nəfər; c) 300 min nəfər;

9. Əhalinin aktivlik əmsalını:

a) 0.25; b) 0.35; c) 0.45;

10. Əhalinin işsizlik əmsalını:

a) 0.12; b) 0.13; c) 0.50;

11. Əhalinin məşğulluq əmsalını:

a) 0.88; b) 0.85; c) 0.80;

12. Əmək ehtiyatlarının həcmini:

a) 530 min nəfər; b) 520 min nəfər; c) 500 min nəfər;

13. Əmək qabliyyətli yaşdan çavan əhalinin sayının əmək qabliyyətli yaşda olan əhalinin sayına nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Əmək qabliyyətli əhalinin çavanlarla yüklənmə əmsalı; b) Əmək qabliyyətli əhalinin qocalarla yüklənmə əmsalı; c) Əhalinin cavanlarla yüklənmə əmsalı;

14. Əmək qabliyyətli yaşdan yuxarı əhalinin sayının əmək qabliyyətli əhalinin sayına nisbətindən alınan göstərici nəyi anladır?



a) Əmək qabliyyətli əhalinin qocalarla yüklənmə əmsalını; b) Əmək qabliyyətli əhalinin cavanlarla yüklənmə əmsalını; c) Əhalinin qocalarla yüklənmə əmsalı;

Aşağıdakı şərti məlumatlar verilmişdir (min nəfər):

1.Əmək qabliyyətli yüaşdan çavan əhalinin sayı - 200;
2.Əmək qabliyyətli yaşda olan əhalinin sayı - 400;
3.Əmək qabliyyətli yaşdan yuxarı əhalinin sayı - 20;

Bunlara əsasən hesablayın (15-17):

15. Əmək qabliyyətli yaşda olan əhalinin çavanlarla yüklənmə əmsalını:

a) 500 nəfər; b) 1000 nəfər; c) 620 nəfər;

16. Əmək qabliyyətli yaşda olan əhalinin qocalarla yüklənmə əmsalını:

a) 50 nəfər; b) 60 nəfər; c) 30 nəfər;

17. Əmək qabliyyətli yaşda olan əhalinin umumi yükələnmə əmsalını:

a) 550 nəfər; b) 560 nəfər; c) 530 nəfər;

18.İşlənmiş adam-günlərin umumi sayının iş günlərinin sayına bölünməsindən alınan göstəriciyə nə ad verirlər?
a) Faktiki işləyənlərin orta sayı; b) Növbəlilik əmsalı; c) Faktiki işləyənlərin ümumi sayı;

19. İşçilərin bütün günlərdəki siyahı sayının aydakı təqvim günlərinin sayına nisbətindən alınan göstərici nəyi göstərir ?

a) İşçilərin orta aylıq siyahı sayını; b) İşçilərin illik siyahı sayını; c) İşçilərin nisbi artımını;

20. İşə çıxan adam-günlərin umumi sayının 1500 adam-gün, bütün günü boşdayanmaların sayının 250 adam-gün olduğunu bilərək işlənmiş adam-günlərin ümumi sayını hesablayın:

a) 1250 adam-gün; b) 1100 adam-gün; c) 1000 adam-gün;

21. Bütün növbələrdə işlənmiş adam-günlərin umumi sayının ən böyük növbədə işlənmiş adam- günlərin sayına bölünməsindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Növbəlilik əmsalı; b) Ən kiçik növbə; c) Ən böyük növbə;



22. İşlənmiş adam-günlərin umumi sayının 200000 adam-gün, iş günlərinin sayının 250 adam-gün olduğunu bilərək faktiki işləyənlərin orta sayını tapın:

a) 800 nəfər; b) 500 nəfər; v) 950 nəfər;

23. İşə çıxılan adam günlərin umumi sayından bütün günü boşdayanmaların sayını çıxmaqla alınan göstərici nəyi anladır?

a) İşlənmiş adam günlərin ümumi sayını; b) İşlənmiş adam günlərin xüsusi sayını; c)İşlənmiş adam günlərin orta siyahı sayını;

24. İşçilərin ayın bütün günlərindəki siyahı sayının 9900 adam-gün, təqvim günlərinin sayının 30 gün olduğunu bilərək işçilərin orta aylıq siyahı sayını hesablayın:

a) 330 nəfər; b) 350 nəfər; c) 500 nəfər;

25.Bütün növbələrdə işləmiş adam-gnlərin ümumi sayının 1500 adam-gün, ən böyük növbədə işləmiş adam günlərinin sayının 500 adam-gün olduğunu bilərək növbəlilik əmsalını hesablayın

a) 3; b) 4; c)5;

26.İşə qəbul edilən şəxslərin sayının işçilərin orta siyahı sayına bölünməsindən alınan göstərici statistikada nəyi anladır?

a) İşə qəbul üzrə dövriyyə əmsalını; b) İşə qəbul üzrə getmə əmsalı; c) Növbəlilik əmsalı;

27. İşdən çıxanların sayının işçilərin orta siyahı sayına bölünməsindən alınan göstəriciyə nə ad verirlər?

a) İşdən çıxma üzrə dövriyyə əmsalı; b) İşdən çıxma üzrə dövriyyədaxili əmsal; c) Növbə rejimindən istifadə əmsalı;

28. Öz arzusu və əmək intizamını pozduğuna görə işdən çıxanların sayının işçilərin orta siyahı sayına bölünməsindən alınan göstərici nəyi anladır?

a) İşçi axını əmsalını; b) İşçilərin sayını; c) İşçilərin sayınını mütləq artımını;

Aşağıdakı şərti məlumatlar verilmişdir:

1.İşə qəbul edilənlərin sayı --- 20 nəfər;
2.İşdən çıxanların sayı --- 30 nəfər;
3.Öz arzusu ilə işdən çıxanlar --- 40 nəfər;
4.Əmək intizamını pozduğuna görə işdən çıxanlar --- 25 nəfər;
5.işçilərin orta siyahı sayı---500 nəfər



Bunlara əsasən aşağıdakıları hesablayın (29-31):

29. İşə qəbul üzrə dövriyyə əmsalını;

a) 0.04; b) 0.03; c) 0.02;

30. İşdən çıxma üzrə dövriyyə əmsalını:

a) 0.06; b) 0.05; c) 0.07;

31. İşçi axını əmsalını:

a) 0.13; b) 0.23; c) 0.103;

32. Verilənlərdən hansı əmək qanunvericiliyinə görə qanunla işə çıxılmayan günlərə aid edilir?

a) Bayram və istirahət günləri; b) Növbəti məzuniyyyət günləri; c) Bunların hamısı;

33. İşə çıxılan və çıxılmayan adam günlərinin cəmi nəyi göstərir?

a) İş vaxtının təqvim fondunu; b) İş vaxtının mütləq artımını; c) İş vaxtının nisbi təqvim fondunu;

34. Faktiki işlənmiş adam günlərlə bütün günü boşdayanmaları toplasaq alınan göstərici nəyı göstərir?

a) İşə çıxılan adam günləriti; b) İşə çıxılmayan adam günlərini; c) İş vaxtının artımını;

Aşağıdakı şərti məlumatlar verilmişdir:

1.İşə çıxılmayan adam günlər - 500;
2.Faktiki işlənmiş adam günlər - 2000;
3.Bütün günü boşdayanmalar - 250;

Bunlara əsasən hesablayın (35,36):

35. İşə çıxılan adam günlərini:

a) 2250; b) 2280; c) 2500;

36. İş vaxtının təqvim fondunu:

a) 2750; b) 2850; c) 2600;

37. İş vaxtının təqvim fondundan bayram, istirahət və növbəti məzuniyyət günlərini çıxdıqda alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Maksimum-mümkün iş vaxtı fondu; b) Təqvim fondu; c) Məzuniyyət fondu;

38. İş vaxtının təqvim fondunun 3000 adam-gün, bayram, istirahət və növbəti məzuniyyət günlərinin 1000 adam gün olduğunu bilərək maksimum-mümkün iş vaxtı fondunu hesablayın:



a) 2000 adam gün; b) 1500 adam gün; c) 2500 adam gün;

39. Ay ərzində işçilərin işlədiyi adam günlərinn umumi sayının onların orta aylıq siyahı sayına bölünməsindən alınan göstərici nəyi göstərir?

a) İş ayının orta davam etmə müddətini; b) İş ayının günlərini; c) İş ayının son gününü;

40. Növbə daxilində və növbədən kənar vaxtda işlənmiş adam-saatlarının faktiki sayını işlənmiş adam günlərin sayına bölünməsindən alınan göstərici statistikada necə adlanır?

a) Tam iş gününün orta davam etmə müddəti; b) Qismən iş gününün mütləq artımı; c) İş gününün nisbi artımı:

## Mövzu 4. Əmək məhsuldarlığı və əmək ödənişi statistikası

1.Vaxt vahidi ərzində istehsal olunan məhsulun miqdarı statistikada nəyi anladır?

a) Əmək məhsuldarlığını; b) Əmək haqqını; c) Əmək ödənişini;

2. Verilənlərdən hansı əmək məhsuldarlığının müstəqim (düz) göstəricisinin düsturudur?

a) $W = \frac{q}{T}$; b) $W = \frac{T}{q}$; c) $W = \frac{p}{k}$;

3. Verilənlərdən hansı əmək məhsuldarlığının əsas göstəricisinin düsturudur?

a) $W = \frac{T}{q}$; b) $W = \frac{q}{T}$; c) $W = T \cdot q$;

4. Məhsulun əmək tutumunun azalması nəyi göstərir?

a) Əmək məhsuldarlığının artdığını; b) Əmək məhsuldarlığının azaldığını; c) Əmək məhsuldarlığının dəyişmədiyini;



5. Məhsul vahidinin istehsalına əmək məsrəfini əks etdirən göstəriciyə nə ad verirlər?

a) Məhsulun əmək tutumu; b) Məhsulun dinamikası; c) Məhsulun mütləq artımı;

6. İstehsal olunumuş məhsulun dəyərinin 100 mln. manat, işçilərin sayının 200 nəfər olduğunun bilərək hər nəfərə əmək məhsuldarlığının orta səviyyəsini hesablayın:

a) 500 min manat; b) 600 min manat; c) 550 min manat;

7. İstehsal olunmuş məhsulun dəyərinin 200 min manat, işlənmiş vaxtın 400 000 adam gün olduğunu bilərək məhsulun əmək tutumunu hesablayın:

a) 2 adam gün; b) 3 adam gün; c) 0.2 adam gün;

8.İş vaxtının qəbul edilən ölçü vahidindən asılı olaraq statistika təcrübəsində əmək məhsuldarlığının hansı göstəricilərindən istifadə edilir?

a) Orta saatlıq, orta günlük, orta rüblük əmək məhsuldarlığından b) Orta aylıq, orta illik əmək məhsuldarlığından; c) Bunların hamısı;

9. Müəyyən dövrdə istehsal olunmuş məhsulun həcminin işlənmiş adam-saatların ümumi sayına bölünməsindən alınan göstərici nəyi anladır?

a) Orta saatlıq hasilatı; b) Orta günlük hasilatı; c) Orta illik hasilatı;

10. İstehsal olunmuş məhsulun həcminin işlənmiş adam günlərin sayına bölünməsindən alınan göstərici statistikada nə adlanır?

a) Orta günlük hasilat; b) Orta saatlıq hasilat; c) Orta illik hasilat;

11. Orta saatlıq əmək məhsuldarlığı səviyyəsinin iş günününün uzunluğuna vurulması ilə əmək məhsuldarlığının hansı göstəricisi alınır?

a) Orta günlük əmək məhsuldarlığı; b) Orta saatlıq əmək məhsuldarlığı; c) Əmək tutumu;

12. İşlənmiş adam-saatların miqdarının həqiqi işlənmiş adam günlərin sayına bölünməsindən alınan göstərici nəyi anladır?

a) İş gününün uzunluğunu; b) İş gününün artımını; c) İş günününün azalmsını;

13. Müəyyən dövrdə (ay, rüb, il) istehsal olunmuş məhsulun həcmini işçilərin həmin dövrdəki orta siyahı sayına bölsək əmək məhsuldarlığının hansı göstəricisini almış olarıq?



a) Orta aylıq, orta rüblük, orta illik əmək məhsuldarlığını; b) Orta aylıq, orta saatlıq, orta illik əmək məhsuldarlığını; c) Orta aylıq, orta günlük, orta saatlıq əmək məhsuldarlığını;

Firmaya aid aşağıdakı şərti məlumatlar verilmişdir:

1.İşçilərin sayı (nəfər) --- 500;
2.İstehsal edilmiş məhsul (ədəd) - 600 000;
3.İşlənmiş adam- günlər ------ 8000;
4.İşlənmiş adam- saatlar ------ 60 000;

Bu məlumata əsasən hesablayın (14-17):

14. Firmanın istehsal heyətinin hər nəfərinə düşən əmək məhsuldarlığını:

a) 1200 ədəd; b) 1300 ədəd; c) 1600 ədəd;

15. Firmanın orta saatlıq əmək məhsuldarlığını:

a) 10 ədəd; b) 15 ədəd; c) 20 ədəd;

16. Firmanın orta günlük əmək məhsuldarlığını:

a) 75 ədəd; b) 75.6 ədəd; c) 85 ədəd;

17. Firmanın iş gününün müddətini (uzunluğunu)

a) 7.5 saat b) 7.6 saaat v) 7.0 saat

18. İş gününün uzunluğunun 8 saat, əmək məhsuldarlığının orta saatlıq səviyyəsinin 15 ədəd olduğunu bilərək əmək məhsuldarlığının orta günlük səviyyəsini hesablayın:

a) 120 ədəd; b) 130 ədəd; c) 150 ədəd;

19. İş ayının uzunluğunun 28 saat, əmək məhsuldarlığının orta günlük səviyyəsinin 100 ədəd olduğunu bilərək əmək məhsuldarlığının orta aylıq səviyyəsini hesablayın:

a) 2800 ədəd; b) 3000 ədəd; c) 2500 ədəd;

20. Verilənlərdən hansı əmək məhsuldarlığının fərdi indeksini göstərir?

a) $i_w = w_1 : w_0$; b) $i_w = t_1 : t_0$; c) hər ikisi;

21. 2000-ci ildə ayaqqabı istehsalı üzrə əmək məhsuldarlığının 250 cüt, 2001-ci ildə isə 280 cüt olduğunu bilərək bu məhsul üzrə əmək məhsuldarlığının fərdi indeksini hesablayın:

a) 1.12; b)1.13; c)1.15;

22. I rübdə məhsul vahidinin əmək tutumunun 5 adam saat, II rübdə isə 4 adam saat təşkil etdiyini bilərək əmək tutumunun fərdi indeksini hesablayın:

a) 0.8; b) 0.6; c)0.85;



23. Məhsul vahidinin əmək tutumu indeksinin 0.8 olduğunu bilərək əmək məhsuldarığının neçə faiz artdığını hesablayın:

a) 25%; b)30%; c)26%;

24. Statistikada əmək məhsuldarlığının ümumi səviyyəsinə müxtəlif amillərin təsirini öyrənmək üçün hansı indekslərdən istifadə olunur?

a) Əmək məhsuldarlığının dəyişən və sabit tərkibli indeksindən; b) Quruluşun dəyişilməsi indeksindən; c) Bunların hamısından;

25. Verilənlərdən hansı əmək məhsuldarlığının dəyişən tərkibli indeksinin düsurudur?

a) $I_w^{dt} = \frac{\sum q_1}{\sum T_1} : \frac{\sum q_0}{\sum T_0}$; b) $I_w^{dt} = \frac{\sum q_1}{\sum T_0} : \frac{\sum q_0}{\sum T_1}$; c) $I_w^{dt} = \frac{\sum q_1}{\sum T_0}$;

26. Əmək məhsuldarlığının ümumi səviyyəsinə quruluş dəyişikliyinin təsirini qiymətləndirmək üçün hansı indeksdən istifadə edilir?

a) Quruluş dəyişilməsi indeksi; b) Quruluşun azalması indeksi; c) Əmək haqqı indeksi;

27. Verilənlərdən hansı sabit tərkibli əmək məhsuldarlığı indeksinin düsturudur?

a) $I_w^{st} = \dfrac{\sum W_1T_1}{\sum W_0T_1}$; b) $I_w^{st} = \dfrac{\sum W_1T_0}{\sum W_0T_0}$; c) $I_w^{st} = \dfrac{\sum W_0T_0}{\sum W_1T_1}$;

28. Dəyişən tərkibli əmək məhsuldarlığı indeksinin 1.5, sabit tərkibli əmək məhsuldarlığı indeksinin isə 1.25 olduğunu bilərək quruluşun dəyişilməsi indeksini hesablayın:

a) 1.2; b) 1.5; c) 1.6;

29. 2000-ci ilə nisbətən 2001-ci ildə ümumi məhsul istehsalının 35%, işlənmiş vaxt fondunun 20% artdığını bilərək əmək məhsuldarlığı indeksini hesablayın:

a) 1.62; b)1.72; c) 1.85;

30. $\sum W_1T_1$ -in 2500-ə, $\sum W_0T_1$ -in isə 2000-ə bərabər olduğunu bilərək əmək məhsuldarlığının sabit tərkibli indeksini hesablayın:

a) 1.25; b) 1.35; c)1.55;

31.Sabit tərkibli əmək məhsuldarlığı indeksinin quruluş dəyişilməsi əmək məhsuldarlığı indeksinə vurulmasından alınan indeks necə adlanır?



a) Dəyişən tərkibli əmək məhsuldarlığı indeksi; b) Sabit tərkibli əmək məhsuldarlığı indeksi; c) Əmək haqqı fondu indeksi;

32. Firmanın aylıq ümumi əmək haqqı fondunun 80 mln. manat, işçilərin sayının 400 nəfər olduğunu bilərək bir işçinin orta əmək haqqı səviyyəsini hesablayın:

a) 200 min manat; b) 250 min manat; c) 280 min manat;

33. Müəssisədə orta əmək haqqının 150 min manat, işçilərin sayının 200 nəfər olduğunu bilərək onun əmək haqqı fondunun həcmini hesablayın:

a) 30 mln. manat; b) 35. mln. manat; c) 30 min manat;

34. 2000-ci ildə orta aylıq əmək haqqı 250 min manat, 2001-ci ildə isə 300 min manat təşkil etmişdir. 2000-ci ilə nisbətən 2001-ci ildə orta aylıq əmək haqqı:

a) 20% artmışdır; b) 20% azalmışdır; c) 15% artmışdır;

35. İşçilərin həqiqi işlədiyi adam-saatlar üçün aldığı əmək haqqının orta səviyyəsini xarakterizə edən göstərici necə adlanır?

a) Orta saatlıq əmək haqqı; b) Orta günlük əmək haqqı; c) Orta aylıq əmək haqqı;

36. Günlük əmək haqqı fondunun həqiqi işlənmiş adam günlərin sayına bölünməsindən alınan göstərici nəyi anladır?

a) Orta günlük əmək haqqını; b) Orta illik əmək haqqını; c) Ümumi yığımı;

37. Orta aylıq əmək haqqını hesablamaq üçün aylıq əmək haqqı fondu:

a) İşçilərin orta siyahı sayına bölünür; b) İşlənmiş adam-saatların sayına bölünür; c) İşlənmiş adam-günlərin sayına bölünür;

38. Saatlıq əmək haqqı fondu ilə işlənmiş adam-saatların nisbətindən alınan göstərici statistikada necə adlanır?

a) Orta saatlıq əmək haqqı; b) Orta günlük əmək haqqı; c) Əmək haqqı fondu;

Aşağıdakı şərti məlumatlar verilmişdir:

1.Aylıq əmək haqqı fondu ---- 600 mln. manat;
2.İşçilərin orta siyahı sayı --- 300 nəfər;
3.İşlənmiş adam-günlər -------- 8 min;
4.İşlənmiş adam-saatlar ------- 80 min;



Bunlara əsasən aşağıdakıları hesablayın (39-41):

39. Orta aylıq əmək haqqının səviyyəsini:

a) 200 min manat; b) 250 min manat; c) 220 min manat;

40. Orta günlük əmək haqqının səviyyəsini:

a) 7500 manat; b) 5000 manat; c) 6000 manat;

41. Orta saatlıq əmək haqqının səviyyəsini:

a) 750 manat; b) 600 manat; c) 650 manat;

42. Verilənlərdən hansı əmək haqqının dəyişən tərkibli indeksidir?

a) $I_{d.t}^{əh} = \frac{\sum f_1 T_1}{\sum T_1} : \frac{\sum f_0 T_0}{\sum T_0}$; b) $I_{d.t}^{əh} = \frac{\sum f_0 T_0}{\sum f_1 T_0}$;

c) $I_{d.t}^{əh} = \frac{\sum f_1 T_1}{\sum f_0 T_1}$;

43. Orta əmək haqqının dəyişməsinə işçilərin sayının dəyişməsinin təsirini aradan qaldırmaq üçün əmək haqqının hansı indeksindən istifadə olunur?

a) Əmək haqqının sabit tərkibli indeksindən; b) Əmək haqqının quruluş dəyişilməsi indeksindən; c) Əmək haqqı fondu indeksindən;

44. Dəyişən tərkibli əmək haqqı indeksinin sabit tərkibli əmək haqqı indeksinə bölünməsindən alınan indeks necə adlanır?

a) Quruluşun dəyişilməsi indeksi; b) Sabit tərkibli indeks; c) Fondtutumu indeksi;

45. $\sum f_1T_1$ -in 1500-ə, $\sum f_0T_0$ -in 1250-ə bərabər olduğunu bilərək sabit tərkibli əmək haqqı indeksini hesablayın:

a) 1.20; b) 1.30; c) 1.46;

46. Dəyişən tərkibli əmək haqqı indeksinin 1.45, sabit tərkibli əmək haqqı indeksinin isə 1.25 olduğunu bilərək quruluş dəyişilməsi indeksini hesablayın:

a) 1.16; b) 1.17; c) 1.25;

Yanvar ayında firmada işləyənlərin sayının 60 nəfər, orta əmək haqqının 150 min manat, fevral ayında isə uyğun olaraq 50 nəfər və 200 min manat olduğunun bilərək aşağıdakıları hesablayın (47-49):

47. Yanvar ayına nisbətən fevral ayında əmək haqqı fondunun mütləq artımını:

a) 1.0 mln. manat; b) 15 mln. manat; c) 1.5 mln. manat;



48. Orta əmək haqqının dəyişməsi hesabına onun artımını:

a) 2.5 mln. manat; b) 3.5 mln. manat; c) 5 mln. manat;

49. İşçilərin sayının dəyişməsi hesabına onun dəyişməsini:

a) -1.5 mln. manat; b) 2.5 mln. manat; c) -3.5 mln. manat;

50. Orta əmək haqqı indeksinin 1.045, əmək məhsuldarlığı indeksinin 1.10 olduğunu bilərək əmək haqqının artım sürətinin əmək məhsuldarlığının artımından nə qədər geri qaldığını hesablayın:

a) 5%; b) 3%; c) 4%;

## Mövzu 5. Milli sərvət statistikası

1.. İqtisadiyyat sektorlarının "xüsusi kapitalının" məcmusuna statistikada nə ad verirlər?

a) Milli sərvət; b) Əsas kapital; c) Dövriyyə kapitalı;

2. İnstitusional vahidlərin mülkiyyət hüququnun həyata keçirdiyi və müəyyən dövrdə istifadəsindən iqtisadi səmərə əldə etdiyi obyektlərə iqtisadçılar nə ad verirlər?

a) İqtisadi aktivlər; b) İqtisadi pasivlər; c) İqtisadi artım;

3. Milli sərvətin tərkibinə daxil olan bütün aktivlər neçə qrupa ayrılır?

a) 3; b) 2; c) 4;

4. Vahidinin və dəstinin minimum dəyəri neçə manat olan əşyalar əsas vəsaitlər hesab edilir?

a) 400 min; b) 500 min; c) 300 min;

5. Təkrar istehsal olunan aktivlər məcmu olmaqla istehsal prosesində dəfələrlə iştirak edən, öz dəyərini məhsula fiziki köhnəlmə kimi keçirən və xidmət müddəti bir ildən az olmayan əşyalara iqtisadçılar nə ad verirlər?



a) Əsas kapital; b) Əsas borc c) Dövriyyə kapitalı;

6. Əmək çisimlərinə bilavasitə təsir göstərən istehsal aktivlərinin məcmusuna iqtisadçılar nə ad verirlər?

a) Əsas kpitalın aktiv hissəsi; b) Əsas kapitalın passiv hissəsi; c) Əsas dövriyyə kapitalı;

7. İstehsl proseslərinin normal getməsi üçün şərait yaradan istehsal olunmuş aktivlərin məcmusuna nə ad verirlər?

a) Əsas kapitalın passiv hissəsi; b) Əsas kapitalın aşınan hissəsi; c) Əsas kapitalın yararlı hissəsi;

8.Verilənlərdən hansı əsas kapitalın qiymətləndirilməsinin kevışmjkş aid edilir?

a) Əsas kpitalın tam ilk dəyəri və köhnəlməsi çıxılmaqla ilk dəyəri; b) Bərpa dəyəri və köhnəlməsini çıxmaqla bərpa dəyəri; c) Bunların hamısı;

9. Əsas kapitalın yaradıldığı anda onların tikilməsinə, əldə edilməsinə, daşınıb gətirilməsinə və quraşdırılmasına çəkilən bütün xərclər əsas kapitalın hansı dəyərini təşkil edir?

a) Tam ilk dəyərini; b) Köhnəlməni çıxmaqla tam ilk dəyərini; c) Köhnəlmə dəyərini;

10. Əsas kapitalın köhnəlməsinin pulla ifadəsinə iqtisadçılar nə ad verirlər?

a) Əsas kapitalın amortizasiyası; b)Əsas kapitalın aktivi; c)Əsas kapitalın passivi;

11. İllik amortizasiya ayırmalarının əsas kapitalın tam dəyərinə nisbətinin faizlə ifadəsi nəyi anladır?

a) Amortizasiya normasının; b) Amortizasiya ayırmalarını; c) Qazancı;

12. Verilənlərdən hansı əsas kapitalın vəziyyətini səciyyələndirən göstəricilərdən hesab edilir?

a) Əsas kapitalın köhnəlmə əmsalı; b) Əsas kapitalın yaralılıq əmsalı; c) Bunların hamısı;

13. Əsas kapitalın dəyərinin hər vahidinə nə qədər məhsul istehsal edildiyini səciyyələndirən göstəriciyə nə ad verirlər?

a) Kapital verimi (fondverimi); b) Kapital tutumu; c) Təzələnmə əmsalı;

14. 2001-ci ildə əsas kapitala hesablanan illik amortizasiya məbləğinin 800 min manat, əsas kapitalın tam dəyərinin 16000 min manat olduğunu bilərək amortizasiya normasını hesablayın:

a) 5%; b) 6%; c) 8%;



15. 2001-ci il üçün əsas kapitalın köhnəlmə əmsalının 25,6% olduğunu bilərək onun yararlılıq əmsalını hesablayın:

a) 74,4%; b) 74,0%; c) 73,2%;

16. 2001-ci il ərzində işə salınan əsas kapitalın dəyrinin 650 min manat, ilin axırına əsas kapitalın tam dəyərinin 2500 min manat olduğunu bilərək əsas kapitalın təzələnmə əmsalını hesablayın:

a) 26%; b) 25%; c)23%;

17. 2001-ci ildə əsas kapitalın orta illik dəyərinin 1500 min manat, məhsul buraxılışının həcminin 900 min manat olduğunu bilərək fondverimi göstəricisini hesablayın:

a) 0.6 manat; b) 0.5 manat; c) 1.5 manat;

18. Əsas kapitalın tam bərpa dəyərini ən böyük növbədəki fəhlələrin sayına bölməklə hesablanan göstəriciyə statistikada nə ad verirlər?

a) Əsas fonların təzələnmə əmsalı; b) Əməyin əsas kapitalla silahlanma əmsalı; c) Əməyin dövriyyə kapitalı ilə silahlanma əmsalı;

19. 2001-ci il üçün əsas kapitalın yararlılıq əmsalının 52.5% olduğunu bilərək onun köhnəlmə əmsalını hesablayın:

a) 47.5%; b) 47.0%; c) 46.8%;

Aşağıdakı şərti məlumatlar verilmişdir:

| Göstəricilər | 2000 | 2001 |
|---|---|---|
| Əsas fondların orta illik dəyəri (mln.man) | 10 | 15 |
| Məhsul buraxılışının həcmi (mln.man) | 300 | 00 |

Cədvəlin məlumatları əsasında hesablayın (20-25):

20. Hər bir il üçün fonverimini:

a) 30 man, 40 man; b) 30 man, 45 man; c) 35 man, 45 man;

21. 2000-ci ilə nisbətən 2001-ci ildə məhsul buraxılışının mütləq artımını:

a) 300 mln. man; b) 305 mln. man; c) 400 mln. man;

22. Əsas fonların həcminin dəyişməsi hesabına məhsul buraxılışının artımını:
a) 150 mln. man; b) 120 mln. man; c) 155 mln. man;



23. Əsas fonlardan səmərəli istifadə olunması hesabına məhsul buraxılışının artımını:

a) 150 mln. man; b) 135 mln.man; c) 252 mln man;

24. Verilənlərdən hansı dövriyyə fondlarının istifadəsi göstəricilərinə aid edilir?

a) Dövriyyə əmsalı; b) Fondverimi; c) Dövriyyə fondlarının təhkim olunma əmsalı;

25. Satılmış mal və xidmətlərin dəyərinin dövriyyə fonlarının orta qalığına nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Dövriyyə əmsalı; b) Rentabellik; c) Təhkim olunma əmsalı;

26. Dövriyyə fonlarının orta qalığının satılmış mal və xidmətlərin dəyərinə nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Təhkim olunma əmsalı; b) Dövriyyə əmsalı; c) Mənfəət;

27. Satılmış mal və xidmətlərin dəyərinin 600 mln. manat· dövriyyə fonlarının orta illik dəyərinin 150 mln. manat olduğunu bilərək dövretmə əmsalını hesablayın:

a) 4; b) 5; c) 6;

28. Dövriyyə əmsalının 5 olduğunu bilərək təhkim olunma əmsalını hesablayın;

a) 0.2; b) 0.1; c) 0.4;

29. 60 ədəd məmulatın istehsalına 180 kq material sərf edildiyini bilərək materialın xüsusi məsarifini hesablayın:

a) 3 kq; b) 4 kq; c) 3.3 kq;



## Mövzu 6. Milli hesablar sistemi və əsas makroiqtisadi göstəricilər

1.İqtisadi proseslərin ən mühüm tərəflərini və onlar arasında əlaqələri təhlil etməyə və ölçməyə imkan verən makroiqtisadi informasiya sisteminə nə ad verirlər?

a) Milli hesablar sistemi (MHS); b) Bank sistemi; c) Maliyyə sistemi;

2. İqtisadi inkişafın umumi nəticələrini və nisbətlərini əks etdirən göstəricilər sistemi kimi çıxış edən milli hesablar sisteminin nəzəri əsasını hansı nəzəriyyə təşkil edir?

a) Keyns nəzəriyyəsi; b) Marksizm nəzəriyyəsi; c) Maltus nəzəriyyəsi;

3. MHS-nin ən mühüm və başlıca makroiqtisadi göstəricisi hansıdır?

a) Ümumi daxili məhsul (ÜDM); b) Ümumi məsrəf; c) Ümumi mənfəət;

4. İstehsal prosesinə birbaşa aid olan əməliyyatları özündə əks etdirən hesaba nə ad verirlər?

a) İstehsal hesabı; b) Gəlirlərin yaranması hesabı; v) Maliyyə və istehsal hesabı;

5. İstehsal hesabının istifadə hissəsi hansı maddələrdən (göstəricilərdən) ibarətdir?

a) Aralıq istehlak; b) Ümumi əlavə edilmiş dəyər; c) Əməyin ödənilməsi;

6. Məhsul və xidmətlərin ümumi buraxılışının 800 mln. manat, aralıq istehlakın isə 600 mln. manat olduğunu bilərək ümumi əlavə edilmiş dəyəri hesablayın:

a) 200 mln.manat; b) 300 mln. manat; c) 250 mln. manat;

7. Ümumi əlavə edilmiş dəyərin 900 mln. manat, aralıq istehlakın 200 mln. manat olduğunu bilərək məhsul və xidmətlərin ümumi buraxılışının həcmini hesablayın.

a) 1100 mln. manat; b) 1200 mln. manat; c) 1105 mln. manat;

8. Ölkənin iqtisadi ərazisndə istehsalçı-rezident vahidlərin istehsal etdiyi mal və xidmətlərin bazar qiymətlərilə dəyərini səciyyələndirən göstəriciyə nə ad verirlər ?

a) Ümumi daxili məhsul; b) Qarışıq gəlirlər; c) Əmək haqqı fondu;

9.İstehsal prosesi ilə bilavasitə bağlı bölgü əməliyyatlarını əks etdirən hesaba nə ad verirlər?



a) Gəlirlərin yaranması hesabı; b) Kapital hesabı c) Gəlirlərin istifadəsi hesabı;

10. Verilənlərdən hansı gəlirlərin yaranması hesabının göstəricilərinə (maddələrinə) aid edilir?

a) Əməyin ödənilməsi; b) Ümumi mənfəət; c) Bunların hamısı;

Aşağıdakı şərti məlumatlar verilmişdir:

1.Ümumi əlavə dəyər --- 9843 mlrd.manat;
2.İstehsala və idxala vergilər --- 21 mlrd. manat;
3.Əsas fondların istehlakı --- 1500 mlrd. manat;

Bu məlumatlara əsasən hesablayın (40,41):

11.Ümumi mənfəətin həcmini:

a) 7409 mlrd. manat; b) 7420 mlrd. manat; c) 7325 mlrd. manat;

12. Xalis mənfəətin həcmini:

a) 5909 mlrd. manat; b) 5920 mlrd. manat; c) 5830 mlrd. manat;

13. Milli hesablar sistemində subsidiyalar neçə qrupa bölünür?

a) İki; b) Üç; c) Altı;

14. Milli hesablar sistemində vergilər neçə qrupda birləşdirilir?

a) İki; b) Altı; c) Dörd;

15. Məhsullara (istehsala) vergilərlə məhsullara (istehsala) subsidiyalar arasındakı fərqə nə ad verirlər?

a) Məhsullara (istehsala) xalis vergilər; b) məhsullara (istehsala) xalis borclar; c) Məhsullara (istehsala) ümumi xərc;

16. İdxala vergilərlə idxala subsidiyalar arasındakı fərqə nə ad verirlər?

a) İdxala xalis vergilər; b) İdxala və vergilərə xalis borc; c) İstehala xalis vergilər;

17. Milli hesablar sistemində aralıq istehlak hesablanarkən aşağıdakı verilənlərdən hansı ona daxil edilmir?

a) Əsas fondların istehlakı; b) Yanacaq məsarifi; c) Enerji məsarifi;

18. Gəlirlərin yaranması hesabının balanslaşdırıcı maddəsi kimi hansı maddə çıxış edir?

a) İqtisadiyyatın ümumi mənfəəti; b) İqtisadiyyatın ümumi xərci; c) Ümumi investisiya;



19. Bütövlükdə iqtisadiyyat səviyyəsində ölkənin gəlirlərinin ilkin bölgüsünü əks etdirən hesaba nə ad verirlər?

a) İlkin gəlirlərin bölüşdürülməsi hesabı; b) Gəlirlərin saxlanması hesabı; c) Gəlirlərin yığımı və bölgüsü hesabı;

Aşağıdakı şərti məlumatlar verilmişdir:

1.Ümumi mənfəət ---- 9597.3 mlrd. manat;
2.Əməyin ödənilməsi -- 2566.8 mlrd. manat;
3.İstesala və idxala vergilər (+) --- 1737.4 mlrd. manat;
4.İstehsala və idxala subsidiyalar (-) --- 237.4 mlrd. manat;
5.Mülkiyyətdən alınmış gəlirlər --- 272.7 mlrd. manat;
6.Mülkiyyətdən ödənilmiş gəlirlər --- 260.0 mlrd. manat;

Bu məlumata əsasən hesablayın (20):

20. İlkin gəlirlərin bölgüsündən yaranan ümumi daxili məhsulu:

a) 13676.8 mlrd. manat; b) 13675.0 mlrd. manat; c) 13777.7 mlrd. manat;

21. İlkin gəlirlərin bölüşdürülməsi hesabının balanslaşdırıcı maddəsi kimi hansı maddə çıxış edir?

a) Sərəncamda qalan ümumi milli gəlir; b) Sərəncamda qalan xalis xərc; c) Sərəncamda qalan cari transfertlər;

22. Verilən vergi növlərindən hansı MHS-də istehsala (məhsullara) və idxala vergilər hesablanarkən onun tərkibinə daxil edilmir?

a) Mənfəət vergisi; b) Əlavə dəyər vergisi; c) Aksizlər.

23.MHS-də transfertlər neçə qrupa ayrılır?
a) İki; b) Üç; c) Beş;

24. Transfert hansı formada həyata keçirilə bilər?
a) Pul formasında; b) Natural formada; c) Hər iki formada;

25. MHS-də gəlirlərin həm pul, həm də natural formada birtərəfli əvəzsiz ödənilməsini göstərən əməliyyatlara nə ad verirlər?

a) Transfert; b) Renta; c) Vergi;

26. Verilənlərdən hansı cari transfertlərin əsas növlərinə aid edilir?

a) Sərvətə, gəlirlərə cari vergilər; b) Sosial sığortaya ayırmalar; c) Bunların hamısı;



27. Sərəncamda qalan umumi milli gəlirin son istehlak xərclərinə və ümumi yığıma istifadəsini göstərən hesaba MHS-də nə ad verirlər?

a) Sərəncamda qalan gəlirlərin istifadəsi hesabı; b) Sərəncamda qalan gəlirlərin yığım hesabı; c) İstehsal hesabı;

28. Verilənlərdən hansı kapital transfertinə aid edilir?
a) Kapitala vergilər; b) İnvestisiya subsidiyaları; c) Bunların hamısı;

29. İxrac və idxal arasındakı fərqə MHS-də nə ad verirlər?

a) Xalis ixrac; b) Renta; c) Xalis vergi;

30.Sərəncamda qalan gəlirlərin istifadəsi hesabının balanslaşdırıcı maddəsi kimi hansı maddə çıxış edir?

a) Ümumi yığım; b) Ümumi əlavə dəyər; c) Son istehlak xərcləri;

Aşağıdakı şərti məlumatlar verilmişdir:

1. İlkin gəlirlərin bölgüsündən yaranan ümumi daxili məhsul --- 17274.6 mlrd. manat;
2. Alınmış cari transfertlər --- 3529.0 mlrd. Manat;
3.Verilmiş cari transfertlər --- 3232.5 mlrd. manat;

Bu məlumatlara əsasən hesablayın (31):

31. Sərəncamda qalan ümumi gəliri;

a) 17571.1 mlrd. manat; b) 17561.1 mlrd. manat; c) 16571.1 mlrd. manat;

32.Ümumi milli yığımdan əsas fonların istehlakını çıxdıqdan sonra alınan göstəriciyə MHS- də nə ad verirlər?

a) Xalis milli yığım; b) Xalis mənfəət; c) Xalis vergi;

33.Sərəncamda qalan ümumi gəlirin 17571.1 mlrd. manat, son istehlak xərclərinin 16370,4 mlrd. manat olduğunu bilərək ümumi yığımı hesablayın:

a) 1200.7 mlrd. manat; b) 1210.8 mlrd. manat; c) 1250.7 mlrd. manat;

34.Son istehlak xərclərinin 10364,0 mlrd. manat, ümumi yığımın 775.0 mlrd. manat olduğunu bilərək sərəncamda qalan ümumi gəliri hesablayın:

a)11139 mlrd. manat; b) 11239 mlrd. manat; c) 11339 mlrd. manat;

35.Əsas və dövriyyə fondlarının, qeyri-maddi və maliyyə aktivlərinin real yığımı prosesini, habelə onun maliyyələşdirilməsi mənbələrini səciyyələndirən hesaba nə ad verirlər?



a) Əsaslı xərclər (kapital) hesabı; b) İstehsal hesabı; c) Əsaslı gəlirlər (kapital) hesabı;

36.Əsaslı xərclər (kapital) hesabının balanslaşdırıcı maddəsi kimi hansı maddə çıxış edir ?

a)Xalis kreditlər (+), xalis borclar (-); b) Xalis kreditlər (+), xalis yığım (-); c) Xalis borclar (+), xalis renta (-);

37.Ölkə iqtisadiyyatının dünya iqtisadiyyatı ilə əlaqələrini xarakterizə edən hesaba nə ad verirlər?

a) Qalan dünya ilə xarici iqtisadi əlaqələr hesabı; b) Qalan dünya və istehsal hesabı; c) İlkin gəlirlərin yaranması hesabı;

38.Ümumi mənfəətin 9597.3 mlrd. manat, əsas fonların istehlakının 1522,4 mlrd. manat olduğunu bilərək xalis mənfətin həcmini hesablayın:

a) 8074.9 mlrd. manat; b) 8075.8 mlrd. manat; c) 8174.9 mlrd. manat;

39.Xalis mənfəətin 5909.0 mlrd. manat, ümumi əlavə dəyərin 9843.0 mlrd. manat olduğunu bilərək xalis mənfəətin ümumi əlavə dəyərdə xüsusi çəkisini hesablayın:

a) 60%; b) 61%; c) 65%;

Ümumi əlavə dəyərin 31027.9 mlrd. manat, məhsullara və idxala vergilərin 1605.2 mlrd. manat, məhsullara və idxala subsidiyaların 437.5 mlrd. manat olduğunu bilərək aşağıdakıları hesablayın (40-43):

40.Bazar qiymətlərində ümümi daxili məhsulun həcmini:

a)15791.4 mlrd. manat; b) 16791.4 mlrd. manat; c) 15891.4 mlrd. manat;

41.Məhsullara və idxala vergilərin ümumi daxili məhsulda xüsusi çəkisini:

a)5.17%; b) 5.9%; c) 5.37%;

42. Məhsullara və idxala subsidiyaların ümumi daxili məhsulda xüsusi çəkisini:

a)1.41%; b) 2.41%; c) 1.85%;

43. Məhsul və xidmətlərin ixracının 5615.2 mlrd. manat, idxalının isə 8509.3 mlrd. manat olduğunu bilərək məhsul və xidmətlər üzrə xalis ixracı hesablayın:

a)-2894.1 mlrd. manat; b) +2894.1 mlrd. manat; c) -2884.1 ilrd. manat;



Mövzu 7. Qiymət, tariflər və inflyasiya statistikası

1. Milli hesablar sistemində iqisadi əməliyyatlar hansı qiymətlərlə qiymətləndirilir?

a) İstehsalçı qiymətilə; b) Son alıcı qiymətilə; c) Hər ikisi ilə;

2. MHS-də ümumi daxili məhsul hansı qiymətlə qiymətləndirilir?

a) Son alıcı qiymətilə; b) Əsas qiymətlə; c) Pərakəndə qiymətlə;

3. MHS-də məhsul və xidmətlərin buraxılışı hansı qiymətlə qiymətləndirilir?

a) İstehsalçı qiymətilə; b) F.O.B. qiymətilə; v) Əmək ödənişi ilə;

4. Analitik məqsədlərlə mal və xidmətlərin umumi buraxılışını hansı qiymətlərlə qiymətləndirirlər?

a) Əsas qiymətlərlə; b) Alıcı qiymətilə; c) Hər ikisi ilə;

5. İstehsalçı qiymətindən məhsullara xalis vergiləri çıxdıqdan sonra alınan qiymətə MHS-də nə ad verirlər?

a) Əsas qiymət; b) İstehsalçı qiyməti; c) Satış qiyməti;

6. Əsas qiymətlərlə umumi` əlavə dəyərin məbləğinin 500 mln. manat, məhsullara vergilərin məbləğinin 100 mln. manat, məhsullara subsidiyanın məbləğinin isə 50 mln.manat olduğunu bilərək son alıcı qiymətilə umumi daxili məhsulun həcmini hesablayın:

a) 550 mln. manat; b) 560 mln. manat; c) 500 mln. manat;

7. Məhsul və xidmətlərin ümumi buraxılışının istehsalçı qiymətilə qiymətləndirildiyini, ümumi əlavə dəyərin yşbışhjkjk 400 mln. manat, əlavə dəyər vergisinin 50 mln. manat, idxal mallarına vergilərin 150 mln. manat, idxala subsidiyaların məbləğinin isə 200 mln. manat olduğunu bilərək ümumi daxili məhsulun həcmini hesablayın:

a) 400 mln. manat; b) 350 mln. manat; c) 200 mln. manat;

8. MHS-də ictimai təşkilatların və dövlət idarələrinin xidməti nəyin əsasında qiymətləndirilir?

a) Maya dəyəri ilə; b) Mənfəətin məbləği ilə; c) Müqayisəli qiymətlərlə;



Aşağıdakı şərti məlumatlar verilmişdir:

| Məhsulun adı | Satılmış məhsu lun həcmi | | Məhsul vahidinin qiyməti | |
|---|---|---|---|---|
| | 2000 | 2001 | 2000 | 2001 |
| süd (litr) | 600 | 550 | 2 | 3 |
| ət (kq) | 450 | 500 | 8 | 7 |
| düyü (kq) | 500 | 1000 | 3 | 2 |

Bu məlumatlara əsasən hesablayın (9-14):

9. 2000-ci ilə nisbətən 2001-cı ildə südün fərdi qiymət indeksini:

a) 1.50; b) 1.40; c) 1.05;

10. 2000-ci ilə nisbətən 2001-fj jığş ətin fərdi qiymət indeksini:

a) 0.875; b) 0.865; c) 0.805;

11. 2000-ci ilən nisbətən 2001-ci ildə düyünün fərdi qiymət indeksini:

a) 0.667; b) 0.663; c) 0.606;

12. Dəyişən tərkibli qiymət indeksini:

a) 0.858; b) 0.868; c) 0.808;

13. Sabit tərkibli qiymət indeksini:

a) 0.883; b) 0.885; c) 0.806;

14. Quruluş dəyişikliyi qiymət indeksi:

a) 0.972; b) 0.976; c) 0.907;

15. Verilənlərdən hansı sabit tərkibli qiymət indeksinin düsturudur?

a) $I_p = \frac{\sum p_1 \cdot q_1}{\sum p_0 \cdot q_1}$; b) $I_p = \frac{\sum p_1 \cdot q_1}{\sum q_1} : \frac{\sum p_0 \cdot q_1}{\sum q_1}$; c) Hər ikisi;

*16. Dəyişən tərkibli qiymət indeksinin 0.106*, sabit tərkibli qiymət indeksinin 0.985 olduğunu bilərək quruluş dəyişikliyi qiymət indeksini hesablayın:

a) 0.108; b) 0.103; c) 0.109;

17. Dəyişən tərkibli qiymət indeksinin 0.868, quruluş dəyişikliyi qiymət indeksinin 0.686 olduğunu bilərək sabit tərkibli qiymət indeksini hesablayın:

a) 1.265; b) 1.365; c) 1.268;

18.Verilənlərdən hansı quruluş dəyişikliyi qiymət indeksinin düsturudur?



a) $I_p = \frac{\sum p_0 \cdot q_1}{\sum q_1} : \frac{\sum p_0 \cdot q_0}{\sum q_0}$; b) $I_p = \frac{\sum p_0 \cdot q_0}{\sum q_1} : \frac{\sum p_0 \cdot q_0}{\sum q_0}$;

c) $I_p = \frac{\sum p_1 \cdot q_1}{\sum p_0 \cdot q_0}$;

19. Mal dövriyyəsi indeksinin 1.063, mal dövriyyyəsinin fiziki həcm indeksinin 0.985 olduğunu bilərək umumi qiymət indeksini hesablayın:

a) 1.079; b) 1.179; c) 1.089;

19. 2000-ci ilə nisbətən 2001-ci ildə mal və xidmətlərin qiymətinin orta hesabla 16 % artdığını bilərək pulun alıcılıq qabliyyəti indeksini hesablayın:

a) 0.862; b) 0.864; c) 0.806;

20. 2001-ci ildə nominal ümumi daxili məhsulun həcminin 6865 mlrd. manat, mal və xidmətlərin ümumi qiymət indeksinin 1.06 olduğunu bilərək real ümumi daxili məhsulun həcmini hesablayın:

a) 6476.9 mlrd. manat; b) 6466.9 mlrd.manat; c) 6479.9 mlrd.manat;

21. Mineral məhsullar bölməsində xam neft mal qrupunun xüsusi çəkisinin 0.335, bu qrupun qiymət indeksinin 1.28, mazut mal qrupunun xusui çəkisinin 0.317, bu qrupun qiymət indeksinin 1.44, dizel

yanacağı mal qrupunun xüsusi çəkisinin 0.348, bu qrupun qiymət indeksinin 1.20* olduğunu bilərək mineral məhsullar bölməsi üzrə umumi qiymət indeksini hesablayın:

a) 1.30; b) 1.35; c) 1.48;

22. Verilənlərdən hansı Laspeyresin qiymət indeksinin düstutudur?

a) $I_p = \frac{\sum i_p \cdot p_0 \cdot q_0}{\sum p_0 \cdot q_0}$; b) $I_p = \frac{\sum p_1 \cdot q_1}{\sum p_0 \cdot q_0}$; c) Hər ikisi;

23. 2000-ci ildə buğdanın bir kiloqramının qiymətinin 700 manat, 2001-ci ildə isə 950 manat olduğunu bilərək buğdanın qiymətini neçə faiz artdığını hesablayın:

a) 35.7%; b) 34.7%; c) 36.7%;

24. 2000-ci ilə nisbətən 2001-i ildə pambığın qiymətinin 21.4% artdığını, 2001-ci ildə pambığın bir kiloqramının qiymətinin 850 manat olduğunu bilərək 2000-ci il üçün pambığın qiymətini hesablayın:

a) 700 manat; b) 750 manat; c) 800 manat;



## Mövzu 8. Maliyyə statistikası

1.Maliyyə statistikasının əsasını və ən əsas bölməsini nə təşkil edir?

a) Dövlət büdcəsi statistikası; b) Nəqliyyat sçaçksçknasl; ö) Rabitə və qiymətli kağızlar bazarı statistikası;

2. Dövlətin maliyyə-pul-kredit siyasətinin informasiya bazasınınə təşkil edir?

a) Maliyyə və bank statistikası; b) Səhiyyə və bank statistikası; c) İncəsənət statistikası;

2000-ci ildə dövlətin büdcə gəliri 232.7 mln. dollar, 2001 -ci ildə isə 257.1 mln. dollar olmuşdur. Bu məlumata əsasən hesablayın (3,4):

3. 2000-ci ilə nisbətən 2001-ci ildə büdcə gəlirinin iütləq ifadədə dəyişməsini:

a) 24.4 mln. dollar; b) 24.8 mln. dollar; c) 26.0 mln. dollar;

4. 2000-ci ilə nisbətən 2001-ci ildə büdə gəlirinin nisbi dəyişməsini;

a) 10.5%; b) 10.8%; c) 11.6%;

5. Büdcə statistiksında xərc maddələri nə üzrə təsnifatlaşdırılır?

a) İqtisadi kateqoriya üzrə; b) Funksional təyinatı üzrə; c) Hər ikisi üzrə;

Aşağıdakı şərti məlumatlar verilmişdir (mln. dollar):

| Göstəricilər | 2000-ci il |
|---|---|
| 1. Büdcə gəliri | 599.2 |
| 2. Büdcə xərcləri | 682.0 |
| 3. Ümümi daxili məhsul | 4182 |

Bu məlumatlara əsasən hesablayın (6-9):

6. 2000-ci ilin büdcə gəlirinin ümümi daxili məhsulda xüsusi çəkisini:

a) 14.3%; b) 15.0%; c) 16.0%;

7. 2000-ci ilin büdcə xərclərinin ümumi daxili məhsulda xüsusi çəkisini:

a) 16.3%; b) 17.0%; c) 20.0%;

8. 2000-ci ilin büdcə kəsirini:

a) -83.7 mln. dollar; b) -90.7 mln. dollar; c) 105.7 mln. dollar;



9. 2000-ci ilin büdcə kəsirinin ümumi daxili məhsulda xüsusi çəkisini:

a) 2.0%; b) 2.5%; c) 3.0%;

Büdcə gəlirinin 762.1 mln. dollar, o cümlədən vergi daxilolmalarının 689.4 mln. dollar, qeyri-vergi daxilolmalarının 58.9 mln. dollar, kapital əməliyyatlarından gəlirlərin 6.9 mln. dollar, əldə edilmiş rəsmi transfertlərin 6.9 mln. dollar olduğunu bilərək aşağıdakıları hesablayın (10-13):

10. Büdcə gəlirində vergi daxilolmalarının xüsusi çəkisini:

a) 90.5 %; b) 89.9%; c) 86.0%;

11. Qeyri-vergi daxilolmalarının xüsusi çəkisini:

a) 7.7%; b) 7.9%; c) 8.5%;

12. Kapital əməliyyatlarından daxil olan gəlirin payını:

a) 0.9%; b) 2.5%; c) 0.8%;

13. Əldə edilmiş rəsmi transfertlərn xüsusi çəkisini:

a) 0.9%; b)3.0%; c)1.2%;

14. Sığorta edilmiş bütün obyektlərin sığorta məbləğinin onların sayına bölünməsindən alınan göstəriciyə sığorta statistikasında nə ad verirlər?

a) Sığorta edilmiş obyektlərin orta sığorta məbləği; b) ümumi sığorta məbləği; v) Sığorta qaytarmalarının orta məbləği;

15. Zərər çəkmiş obyektlərin sığorta məbləğini onların sayına böldükdə alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Sığorta edilmiş obyektlərin orta sığorta məbləği b) Zərər çəkmiş obyektlərin orta sığorta məbləği c) Zərər çəkmiş obyektlərin ümumi sığorta məbləği;

16. Sığorta qaytarmalarının orta məbləğinin zərər çəkmiş obyektlərin sayına hasilindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Sığorta qaytarmalarının ümumi məbləği; b) Sığorta qaytarmalarının orta məbləği; c) Sığorta qaytarmalarının tezliyi;

17. Sığorta qaytarmaları məbləğinin sığorta məbləğinə nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?
a) Sığorta məbləğinin zərərlilik əmsalı; b) Sığorta məbləğinin tezlik əmsalı; c) Sığorta məbləğinin mütləq artımı;



18. Zərər çəkmiş obyektlərin xüsusi çəkisini sığorta olunmuş obyektlərin sayına vurduqda alınan göstəriciyə nə ad verirlər?

a) Zərər çəkmiş obyektlərin sayı; b) Zərər çəkmiş obyektlərin nisbi tezliyi; c) Zərər çəkmiş obyektlərin mütləq artımı;

19. Baş vermiş sığorta hallarının sayının sığorta olunmuş obyektlərin sayına nisbəti sığorta statistikasında nəyi anladır?

a) Sığorta hallarının tezliyini; b) Sığorta hallarının sayını; c) Sığortanın mütləq artımını;

Aşağıdakı şərti məlumatlar verilmişdir:

1.Sığorta edilmiş obyektlərin sayı --- 500;
o cümlədən:
Zərər çəkmişlərin sayı - -- 200;
2. Ümumi sığorta məbləği (mln.manat) – 800;
o cümlədən:
Zərər çəkmiş obyektlər üzrə (mln. manat) --- 400;
3. Sığorta qaytarmaları üzrə məbləğ (mln.manat) ---- 200;

Bu məlumatlara əsasən hesblayın (20-24):

20. Sığorta edilmiş obyektlərin orta sığorta məbləğini:

a) 1.6 mln. manat; b) 1.7 mln. manat; c) 1.8 mln. manat;

21. Zərər çəkmiş obyektlərin orta sığorta məbləğini:

a) 2 mln. manat; b) 2.1 mln. manat; c) 2.2 mln.manat;

22. Sığorta qaytarmalarının orta məbləğini;

a) 0.5 mln. manat; b) 0.6 mln. manat; c) 0.53 mln. manat;

23. Zərər çəkmiş obyektlərin xüsusi çəkisini:

a) 0.8; b)0.6; c) 0.85;

24. Sığorta məbləğinin zərərlilik əmsalını:

a) 0.25; b) 0.26; c) 0.35;



## Mövzu 9. Bank statistikası

1. Dövrün əvvəlinə kredit qalığının üzərinə il ərzində verilmiş kreditin məbləğini gəlib dövrün axırına kredit qalığını çıxdıqdan sonra alınan göstəriciyə bank statistikasında nə ad verirlər?

a) Ödənmiş kreditin məbləği; b) Verilmiş kreditin məbləği; c) Kreditin orta məbləği;

2. İlin əvvəlinə kredit qalığının 60 mln. manat, axırına 20 mln. manat, il ərzində verilmiş kreditin məbləğinin 40 mln. manat olduğunu bilərək ödənmiş kreditin məbləğini hesablayın:

a) 80 mln. manat; b) 85 mln. manat; c) 60 mln. manat;

3. Verilmiş bütün kreditlərin məbləğini onların sayına böldükdə alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Verilən kreditin orta məbləği; b) Verilən kreditin ümumi məbləği; c) Verilən kreditin mütləq artımı;

4. Əgər verilmiş kreditlərin məbləği və verilmə müddətləri məlum olarsa kreditin orta məbləği orta kəmiyyətin hansı düsturu ilə hesablanar?

a) Hesabi orta kəmiyyətin çəkili düsturu; b) Hesabi orta kəmiyyətin horsonik düsturu; c) Hesabi orta kəmiyyətin sadə düsturu;

5. Verilən sudanın məbləğinin borcun orta qalığına bölünməsindən alınan göstəriciyə nə ad verirlər?

a) Kreditin verilmə sürəti; b) Kreditin həcmini; c) Kreditin qalığı;

6. Kredit qoyuluşunun orta qalığının 300 mln. manat, ödənmiş məbləğin isə 500 mln. manat olduğunu bilərək kreditin dövriyyə vaxtını hesablayın:

a) 219 gün; b) 300 gün; c) 40 gün;

7.Pulun alıcılıq qabliyyətinin 25% artdığını bilərək mal və xidmətlərin qiymət indeksini hesablayın:

a) 0.8; b) 0.7; c) 0.6;

8. Əmanətlərin ümumi məbləğinin əmanətlərin sayına bölünməsindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Bir əmanətin orta məbləği; b) Əmanətin ümumi məbləği; c) Əmanətin tezliyi;

9. Əmanətin ümumi məbləğinin il ərzində 35%, əmanətçilərin sayının isə 25% artdığını bilərək bir əmanətin orta məbləğinin dəyişməsini hesablayın:



a) 8%; b)3%; c)8.5%;

10.Əmanətlərin ümumi məbləğinin 2500 mln. manat, əmanətçilərin sayının 1000 nəfər olduğunu bilərək bir əmanətin orta qalığını hesablayın:

a) 2.5 mln. manat; b) 3.5 mln. manat; c) 2.6 mln. manat;

11.Əgər əmanət qalığı bərabər fasilə ilə müəyyən vaxt anına verilərsə əmanətlərin orta qalığı orta kəmiyyətin hansı düsturu ilə hesablanar?

a) Xronoloji orta kəmiyyətin düsturu; b) Orta illik nisbi artım düsturu; c) Sadə hesabi orta kəmiyyətin düsturu;

12. Aşağıdakı şərti məlumatlara əsasən əmanətin orta qalığını hesablayın:

1.01. --- 20 mln. manat;
1.02. --- 30 mln. manat;
1.03. --- 40 mln. manat;
1.04. --- 60 mln. manat;
1.05. --- 80 mln. manat;

a) 45 mln. manat; b) 50 mln. manat; c) 80 mln. manat:

## Mövzu 10. Xarici iqtisadi əlaqələr statistikası

1. İdxal və ixracın cəminə statistikada nə ad verirlər?

a) Xarici ticarət dövriyyəsi; b) Xarici ticarət rüsumu; c) Xarici ticarətin fərqi;

2. İxrac və idxal arasındakı fərqə statistikada nə ad verirlər?

a) Xarici ticarət balansının fərqi; b) Xarici ticarət balansının artım sürəti; c) Xarici ticarətin əlaməti;

3. İdxalın həcminin 150 mln. manat, ixracın həcminin isə 250 mln. manat olduğunu bilərək xarici ticarəti dövriyyəsinin həcmini hesablayın:

a) 400 mln. manat; b) 350 mln. manat; c) 500 mln.manat;

4. Xarici ticarət balansının fərqinin - 20 mlrd. Manat,ixracın həcminin 40 mlrd. manat olduğunu bilərək idxalın həcmini hesablayın;

a) 60 mlrd. manat; b) 65 mlrd. manat; c) 20 mlrd. manat;

5.İxracın xüsusi çəkisinin 65% olduğunu bilərək idxalın xüsusi çəkisini hesablayın;



a) 35%; b) 45%; c) 65%;

6. Mal, xidmət və kapitalın bir ölkədən digər ölkəyə əvəzsiz verilməsinə statistikada nə ad verirlər?

a) Transfert; b) Qazanc; c) Renta;

7. Xarici ticarətin uçotunda prinsip etibarilə neçə sistemdən istifadə edilir?

a) İki; b) Üç; c) Dörd;

8. Malların hərəkəti uçota alınan əraziyə statistikada nə ad verirlər?

a) Statistik ərazi; b) Coğrafi ərazi; c) İnzibati ərazi;

9.Xarici ticarətdə xüsusi sistem tədbiq edilərkən aşağıdakı kateqoriyalardan hansı ona daxil edilmir?

a) Gömrük anbaraları; b) Sərbəst gömrük zonaları; v) Hər ikisi;

10. Beynəlxalq ticarət təcrübəsində sazişlər hansı şərtlərlə bağlanır?

a) S.İ.F. ; b) F.O.B.; C) hər ikisi ilə;

11. İxracın həcminin ümumi daxili məhsulun həcminə nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) İxracın kvotası; b) İdxalın kvotası; c) İxracın qiyməti;

12. İdxalın həcminin ümumi daxili məhsulun həcminə nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) İdxalın kvotası; b) İdxalın səmərəliliyi; c) İxracın kvotası;

13. İdxalın həcminin 100 mlrd. manat, ümumi daxili məhsulun həcminin 500 mlrd. manat olduğunu bilərək idxalın kvotasını tapın:

a) 20%; b) 30%; c) 40%;

14. İxracın həcminin 250 mlrd. manat, ümumi daxili məhsulun həcminin 500 mlrd. manat olduğunu bilərək ixracın kvotasının hesablayın:

a) 50%; b)30%; c) 25%;

15. Xarici ticarət dövriyyəsinin həcminin 350 mlrd. manat, umumi daxili məhsulun həcminin 500 mlrd. manat olduğunu bilərək xarici ticarət dövriyyəsinin kvotasını hesablayın:



a) 70%; b) 60%; c) 75%;

16.Xarici ticarət dövriyyəsinin kvotasının 55%, ixracın kvotasının 30% olduğunu bilərək idxalın kvotasını hesablayın:

a) 25%; b) 30%; c) 35%;

17. İxracın həcminin idxalın həcminə nisbətinin faizlə ifadəsindən alınan göstəriciyə xarici ticarət statistikasında nə ad verirlər?

a) İxracın idxalı ödəmə faizi; b) Xarici ticarət balansı; c) Xarici ticarətin şərti indeksi;

18. İxracın həcminin 250 mlrd. manat, idxalın həcminin 200 mlrd. manat olduğunu bilərək ixracın idxalı ödəmə faizini hesablayın:

a) 125%; b) 135%; c)140%;

19. İxracın orta qiymət indeksinin idxalın orta qiymət indeksinə nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Xarici ticarətin şərti indeksi; b) Xarici icarətin fərqi; c) İxarcın idxalı ödəmə faizi;

20. İxracın orta qiymət indeksinin 0.85, idxalın qiymət indeksinin 1.25 olduğunu bilərək xarici ticarətin şərti indeksini hesablayın:

a) 0.68; b) 0.67; c) 0.66;

21. Xarici ticarətin şərti indeksinin qiyməti 1.25-dən 1.55-ə yüksələrsə aşağıdakılardan hansı doğrudur?

a) Xarici ticarətin şəraiti yaxşılaşır;
b) Xarici ticarətin şəraiti pisləşir;
c) Xarici ticarətin şəraiti dəyişmir;

22. Müəyyən müddət ərzində (ay, rüb, il) ölkənin rezidentlərilə dünyanın istənilən ölkəsinin rezidentləri arasında həyata keçirilən bütün iqtisadi bağlaşmaların statistik yazılışını özündə əks etdirən sənədə statistikada nə ad verirlər?

a) Tədiyə balansı; b) Xarici ticarət balansı; c) Mühasibat balansı;

23. Aşağıdakılardan hansı tədiyyə balansının qurulması prinsiplrinə aid edilir?

a) İkili hesab prinsipi; b) Ölkənin bütün xarici iqtisadi fəaliyyətin əhatə etməsi; c) Hər ikisi;

24.Tədiyə balansında nəticəsi ölkəyə vəsait gətirən bağlaşmalar hansı işarə ilə, hesabın hansı yazılışına aid edilir?

a) "+" işarə ilə kredit yazılışına; b) "-" işarə ilə kredit yazılışına; c) Debet yazılışına;



25 Tədiyə balansında nəticəsi ölkənin vəsait xərclənməsinə gətirib çıxaran bağlaşmalar hansı işarə ilə, hesabın hansı yazılışına aid edilir?

a) "-" işarə ilə debet yazılışına; b) "+" işarə ilə debet yazılışına; c) Kredit yazılışına;

26. Xidmət ixracı ilə xidmət idxalı arasındakı fərqə statistikada nə ad verirlər?

a) Xidmətlər balansı; b) Xidmətlər ixracı; c) Xidmətlər idxalı;

27. Xidmət ixracının 500 mln. manat, idxalının isə 600 mln. manat olduğunu bilərək xidmətlər balansının saldosunu hesablayın:

a) -100 mln. manat; b) 100 mln manat; c) 50 mln. manat;

28.Verilnlərdən hansı tədiyyə balansının iki əsas bölməsi hesab edilir?

a) Cari əməliyyatlar hesabı; b) Kapital və maliyyənin hərəkəti hesabı; c) Hər ikisi;

29.Tədiyə balansının balanslaşdırıcı maddələri nəyi əks etdirir?

a) Tədiyə balansı fərqinin tənzimlənməsi mənbələri və üsullarını; b) Tədiyyə balansı fərqini; c) Tədiyə balansının artımını;

30. Xarici ticarət balansının, xidmətlər balansının, investisiyadan xalis gəlirləri və xalis cari transfertlərin cəmlənməsindən alınanhesaba nə ad verirlər?

a) Cari əməliyyatlar hesabı; b) Xarici ticart balansı; c) Mühasibat balansı;

Aşağıdakı məlumatlar verilmişdir (mlrd. manat):

| | |
|---|---|
| 1. Malların ixracı | - 150; |
| 2. Malların idxalı | - 100; |
| 3. Xidmətlərin ixracı | - 50; |
| 4. Xidmətlərin idxalı | - 20; |
| 5. İnvestisiyadan xalis gəlirlər | - 30; |
| 6. Xalis transfertlər | - + 60; |
| 7. Kapital idxalı | - 80; |
| 8. Kapital ixracı | - 60; |

Bunlara əsasən aşağıdakıları hesablayın (31-34):

31. Xarici ticarət balansının kəmiyyətini:

a) 50 mlrd. manat; b) 60 mlrd. manat; c) 70 mlrd. manat;



32. Xidmətlər balansının kəmiyyətini:

a) 30 mlrd. manat; b) 20 mlrd. manat; c) 35 mlrd. manat;

33. Cari əməliyyatlar balansının kəmiyyətini:

a) 110 mlrd. manat; b) 120 mlrd. manat; c) 130 mlrd. manat;

34. Kapitalın hərəkəti balansının kəmiyyətini:

a) 20 mlrd. manat; b) 25. mlrd.manat; c) 35 mlrd. manat;

35.Xaricidən əldə edilən və xaricə verilən kapital transfertləri tədiyyyə balansının hansı hesabında əks etdirilir?

a) Kapitalın hərəkəti hesabında; b) Maliyyənin hərəkəti hesabında; c) Xarici ticarət balansında;

36. Xaricidən əldə edilən və xaricə verilən qısamüddətli və uzunmüddətli kreditlər tədiyyə balansının hansı hesabında əks etdirilir?

a) Kapitalın hərəkəti hesabında; b) Maliyyənin hərəkəti hesabında; c) xidmətlər balansında;

## Mövzu 11. İstehsal, tədavül xərcləri və səmərəlilik statistikası

1. Hər hansı bir məhsulun və iqtisadi nemətin istehsalı və satışı ilə bağlı firmanın bütün xərclərinin cəminə nə ad verirlər

a) Ümumi xərclər; b) Xüsusi xərclər; c) Dəyişən xərclər;

2. Verilənlərdən hansı ümumi xərclərə daxildir?

a) Sabit xərclər; b) Dəyişən xərclər; c) Bunların hamısı;

3. Ümumi pul daxilolmaları ilə ümumi xərclər arasındakı fərqə iqtisadçılar nə ad verirlər?

a) Mənfəət; b) Xərc; c) Daxili xərc;

4. Firmanın özünəməxsus istehsal amillərinə çəkdiyi xərclərə nə ad verirlər?
a) Daxili xərclər; b) Xarici xərclər; c) Ümumi xərclər;

5. Firmanın özünəməxsus olmayan və kənardan aldığı istehsal amillərinə çəkdiyi xərcə nə ad verirlər?



a) Xarici xərclər; b) Daxili xərclər; c) Sabit xərclər;

6. Məhsul buraxılışının həcmindən asılı olmayaraq iqtisadi subyektin daşıdığı xərcə nə ad verirlər?

a) Sabit xərclər; b) Dəyişən xərclər; c) Aralıq xərclər;

7. Məhsul buraxılışı həcminin dəyişilməsindən asılı olan xərclərə iqtisadçılar nə ad verirlər?

a) Dəyişən xərclər; b) Sabit xərclər; c) Xarici xərclər;

8.Ümumi pul daxilolmalarından xarici xərclər çıxıldıqdan sonra alınan mənfəət necə adlanır?

a) Mühasibat mənfəəti; b) Normal mənfəət; c) İqtisadi mənfəət;

9. Mühasibat mənfəətindən daxili xərcləri kənarlaşdırdıqdan sonra alınan mənfəətə nə ad verirlər?

a) İqtisadi mənfəət; b) Mühasibat mənfəəti; c) Kənar mənfəət;

Firma üzrə aşağıdakı şərti məlumatlar verilmişdir:

1.Ümumi pul daxilolmaları --- 40 mln. manat;

2.Daxili xərclər ---- 10 mln. manat;
3.Xarici xərclər ---- 20 mln. manat;

Bunlara əsasən aşağıdakıları hesablayın (10-12):

10. Firmanın ümumi xərcini:

a) 30 mln manat; b) 20 mln. manat; c) 10 mln. manat;

11. Firmanın mənfəətini:

a) 10 mln manat; b) 15 mln. manat; c) 25 mln. manat;

12.Firmanın mühasibat mənfəətini:

a) 20 mln manat; b) 25 mln. manat; c) 10 mln. manat;

305. Firmanın iqtisadi mənfətini:

a) 10 mln manat; b) 15 mln. manat; c) 6 mln. manat;

13. Müəyyən miqdar məhsulun satışından firmanın əldə etdiyi pul daxilolmaları necə adlanır?

a) Ümumi gəlir; b) Ümumi xərc; c) Xalis gəlir;

14. 500 ədəd məhsulun bir vahidini 8 min manatdan satan firmanın ümumi gəliri nə qədər olar?
a) 4 mln. manat; b) 4 min manat; c) 8 mlrd. manat;



15. Ümumi gəlirin satılmış məhsula nisbətindən alınan göstəricə nəyi anladır?

a) Orta gəliri; b) Dəyişən gəliri; c) Artan gəliri;

16. Ümumi gəlirin 400 min manat, satılmış məhsulun 200 ədəd olduğunu bilərək orta gəliri hesablayın:

a) 2000 manat; b) 2200 manat; c) 2100 manat;

17. Sabit və dəyişən məsrəflərin cəminə nə ad verirlər?

a) Ümumi məsrəf; b) Ümumi mənfəət; c) Ümumi gəlir;

18. Ümumi məsrəfin buraxılmış məhsulun miqdarına nisbəti nəyi anladır?

a) Orta ümumi məsrəfi; b) Dəyişən ümumi məsrəfi; c) Sabit orta məsrəfi;

19. Sabit məsrəfin məhsulun həcminə nisbətindən alınan göstəriciyə nə ad verirlər?

a) Orta sabit məsrəf; b) Orta dəyişən məsrəf; c) Orta ümumi məsrəf;

20. Dəyişən məsrəfin məhsulun həcminə nisbətindən alınan göstəriciyə nə ad verirlər?

a) Orta dəyişən məsrəf; b) Orta sabit məsrəf; c) Orta gəlir;

Firmanın sabit məsrəfinin 300 mln. manat, dəyişən məsrəfinin 200 mln. manat, məhsul buraxılışının həcminin 50 ədəd olduğunu bilərək aşağıdakıları hesablayın (21-24):

21.Firmanın ümumi məsrəfini:

a) 500 mln. manat; b) 550 mln. manat; c) 520 mln. manat;

22.Firmanın orta ümumi məsrəfini:
a) 10 mln. manat; b) 15 mln. manat; c) 20 mln. manat;

23.Firmanın orta sabit məsrəfini:

a) 6 mln. manat; b) 7 mln. manat; c) 8 mln. manat;

24. Firmanın orta dəyişən məsrəfini:

a) 4 mln. manat; b) 5 mln. manat; c) 3 mln. manat;

25. Verilənlərdən hansı fərdi məsrəf indeksinin düsturudur?

a) $i_z = \frac{z_1}{z_0}$; b) $i_z = \frac{z_0}{z_1}$; c) $i_z = \frac{q_1}{q_0}$;



26. 1995-ci ildə məhsul vahidi məsrəfinin 35 min manat, 1996-cı ildə isə 49 min manat olduğunu bilərək fərdi məsrəf indeksini hesablayın:

a) 1.4; b) 1.6; c) 1.7;

27. Verilənlərdən hansı dəyişən tərkibli orta məsrəf indeksinin düsturudur?

a) $I_z = \frac{\sum z_1 q_1}{\sum q_1} : \frac{\sum z_0 q_0}{\sum q_0} = \frac{\bar{z}_1}{\bar{z}_0}$; b) $I_z = \frac{\sum z_0 q_1}{\sum z_1 q_1}$;

c) $I_z = \frac{\sum z_1 q_1}{\sum q_1}$;

28. $\sum z_1 q_1$-in 142 min manata, $\sum z_0 q_1$-in 125 min manata bərabər olduğunu bilərək sabit tərkibli orta məsrəf indeksini hesablayın:

a) 1.16; b) 1.17; c) 1.21;

29. Dəyişən tərkibli orta məsrəf indeksinin 0.99, sabit tərkibli orta məsrəf indeksinin 1.25 olduğunu bilərək quruluş dəyişikliyi indeksini hesablayın:

a) 0.792; b) 0.892; c) 0.782;

30. Məhsulun məsrəf indeksinin 0.85, məhsulun həcm indeksinin 0.75 olduğunu bilərək ümumi məsrəf indeksini hesablayın:

a) 0.6375; b) 0.7375; c) 0.7363;

31. Verilənlərdən hansı ümumi məsrəf indeksinin düsturudur?

a) $I_z = \frac{\sum z_1 q_1}{\sum z_0 q_0}$; b) $I_z = \frac{\sum z_0 q_1}{\sum z_1 q_1}$; c) $i_z = \frac{\sum z_0}{\sum z_1}$;

32. Verilənlərdənhansı məhsulun məsrəf indeksinin düsturudur?

a) $I_z = \frac{\sum z_1 q_1}{\sum z_0 q_1}$; b) $I_z = \frac{\sum z_0 q_1}{\sum z_0 q_0}$; c) $I_z = \frac{\sum z_1 q_0}{\sum z_0 q_0}$;

33. Məhsulun satışından əldə edilən mənfəətin umumi məsrəfə bölünməsindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Məhsulun rentabeliyi; b) Xalis mənfəət; c) Ümumi mənfəət;

34. Firmanın balans mənfəətinin onun istehsal fondlarının orta dəyərinə nisbətindən alınan göstərici nəyi göstərir?
a) Ümumi rentalbelliyi b) Məhsulun rentabelliyini; c) Ümumi xərci;

35. Məhsul satışından əldə edilən mənfəətin məbləğinin 400 mlrd. manat, ümumi məsrəfin 8000 mlrd. manat olduğunu bilərək məhsulun rentabeliliyini hesablayın:



a) 5%; b) 3% ; c) 6%;

36.Firmanın balans mənfəəti 9 mlrd. manat, əsas istehsal vəsaitlərinin orta dəyəri 17 mlrd. manat, dövriyyə vəsaitlərinin orta dəyəri isə 8 mlrd. manat olmuşdur. Bunlara əsasən umumi rentabelliyi hesablayın:

a) 36%; b) 25%; c) 9%;

37. Məhsulun rentabelliyinin 25%, umumi məsrəfin 600 mln. manat olduğunu bilərək məhsul satışından əldə edilən mənfəətin məbləğini hesablayın:

a) 150 mln. manat; b) 200 mln. manat; c) 300 mln. manat;

38. Verilənlərdən hansı hormonik orta məsrəf indeksinin düsturudur?

a) $I_z = \frac{\sum z_1 q_1}{\sum \frac{1}{i_z} z_1 q_1}$; b) $I_z = \frac{\sum z_0 q_1}{\sum \frac{1}{i_z}}$; c) $i_z = \frac{\sum z_0}{\sum z_1}$;

39. Verilənlərdən hansı hesabi orta məsrəf indeksinin düsturudur?

a) $I_z = \dfrac{\sum i_z \cdot z_0 q_1}{\sum z_0 q}$ ; b) $I_z = \dfrac{\sum z_0 q_1}{\sum z_0 q_0}$ ; c) $I_z = \dfrac{\sum z_1 q_1}{\sum \frac{1}{i_z}}$ ;

40. Verilən variantlardan düzgün olanını göstərin:

a) Nəticənin ümumi məsrəfə nisbəti istehsalın səmərəliliyinin müstəqim (düz) göstəricisidir;
b) Nəticənin ümumi məsrəfə hasili istehsalın səmərəliliyinin müstəqim göstəricisidir;
c) Ümumi məsrəfin nəticəyə nisbəti istehsalın səmərəliliyinin müstəqim göstəricisidir;

41. Verilən variantlardan düzgün olanını göstərin:

a) Ümumi məsrəfin nəticəyə nisbəti istehsalın səmərəliliyinin qeyri-müstəqim (tərs) göstəricisidir;
b) Nəticənin ümumi məsrəfə hasili istehsalın səmərəliliyinin qeyri-müstəqim göstəricisidir;
c) Ümumi məsrəfin nəticəyə nisbəti istehsalın səmərəliliyinin müstəqim göstəricisidir;

42. Ümumi əlavə dəyərin aralıq istehlakın dəyərinə nisbətindən alınan göstərici nəyi anladır?

a) Aralıq istehlakın hər manatına istehsal edilən ümumi əlavə dəyəri; b) aralıq istehlakın hər manatına düşən əmək haqqını; c) Aralıq istehlakın hər nəfərinə düşən dəyərini;



43.Verilənlərdən hansı məcmu məsrəfin (faktiki xərclənmiş istehsal amilləri) ünsürləri kimi çıxış edir?

a) İllik amortizasiya məbləği; b) İstehsal prosesində istifadə olunmuş maddi dövriyyə fondlarının dəyəri və umumi əmək haqqı fondu; c) Bunların hamısı;

44. Dəyişən tərkibli səmərəlilik indeksi nəyi xarakterizə edir?

a) Səmərəliliyin səviyyəsinin ümumi dəyişməsini; b) Səmərəliliyin səviyyəsinin fərdi dəyişməsini; c) Mənfətin səviyyəsinin azalmasını;

45. İqtisadiyyatın ayrı-ayrı sahələrində istehsalın səmərəliliyinin bütövlükdə iqtisadiyyat üzrə səmərəliliyin dinamikasına təsiri hansı indeks vasitəsilə öyrənilir?

a) Sabit tərkibli indeks; b) Dəyişən tərkibli indeks; c) Quruluşun dəyişməsi indeksi;

46. İstehsalın səmərəliliyinin ümumi dəyişməsinə iqtisadiyyatın ayrı-ayrı sahələrində istifadə olunan resursların həcminin dəyişməsinin təsiri öyrənən indeks statistikada necə adlanır?

a) Quruluşun dəyişməsi indeksi; b) Sabit tərkibli indeks; c) Mənfətin dəyişməsi indeksi;

47. $\sum E_1P_1$-in 6600 mln. manat, $\sum E_0P_1$-in 7500 mln. manat olduğunu bilərək səmərəliliyin sabit tərkibli indeksini hesablayın:

a) 0.88; b) 0.89; c) 0.92;

48. Verilənlərdən hansı istehsalın səmərəliliyinin dəyişən tərkibli indeksinin düsturudur?

a) $I_{dt} = \frac{\sum E_1P_1}{\sum E_0P_0}$; b) $I_{dt} = \frac{\sum E_0P_0}{\sum E_0P_1}$; c) $I_{dt} = \frac{\sum P_1}{\sum P_0}$;

49. İstehsalın səmərəliliyinin dəyişən tərkibli indeksinin 1.55, quruluşun dəyişməsi indeksinin 1.25 olduğunu bilərək səmərəliliyin sabit tərkibli indeksini hesablayın:

a) 1.24; b) 1.25; c) 1.35;

50. Aralıq istehlakın dəyərinin ümumi daxili məhsulun dəyərinə nisbətindən alınan göstəriciyə statistikada nə ad verirlər?

a) İstehsalın material tutumu; b) Məhsulun əmək ödənişi tutumu; c) Fondverimi;

51. Amortizasiya məbləğinin umumi daxili məhsula bölünməsindən alınan göstərici nəyi anladır?



a) Əldə edilən nəticənin hər vahidinə düşən amortizasiya məbləğini; b) İstehsalın material tutumunu; c) İstehlak normasını;

52. Ümumi əmək haqqının ümumi daxili məhsula nisbətindən aıxkak çcnoşmjcj statistikada nəyi anladır?

a) Məhsulun əmək ödənişi tutumunu b) Məhsulun dövriyyə tutumunu; c) Məhsulun material tutumu;

Ümumi xərclərin 2500 mlrd. manat, o cümlədən aralıq istehlakın 1200 mlrd. manat, əsas fonların amortizasiyasının 800 mlrd. manat, əmək ödənişinin 500 mlrd. manat olduğunu bilərək aşağıdakıları hesablayın (53-55):

53. Aralıq istehlakın ümumi xərcdə xüsusi çəkisini:

a) 48%; b) 49%; c) 51%;

54. Əsas fonların amortizasiyasının ümumi xərcdə xüsusi çəkisini:

a) 32%; b) 31%; c) 29%;

55. Əmək ödənişinin ümumi xərcdə payını:

a) 20%; b) 21%; c) 22%;

56. Kapital qoyluşu həcminin ümumi əlavə dəyərə nisbətindən alınan göstərici statistikada nəyi anladır?

a) Məhsulun kapital tutumunu; b) Məhsulun xərc normasını; c) Məhsulun artımını;



## Mövzu 12. Əhalinin həyat səviyyəsi və sosial sferanın statistikası

1. Əhalinin sosial-iqtisadi həyat şəraitinin bütün tərəflərini kompleks xarakterizə edən kateqoriyaya nə ad verirlər?

a) Əhalinin həyat səviyyəsi; b) Əhalinin şəxsi istehlakı; c) Əhalinin sosial təminatı;

2. Verilənlərdən hansılar əhalinin həyat səviyyəsi statistikasının bölmələri kimi çıxış edir?

a) Əhalinin gəlirləri və sosial təminatı statistikası; b) bank statistikası; c) Mal və xidmətlər istehlakı statistikası;

3. Mal və xidmətlərin qiymətlərinin dəyişməsindən asılı olmayan əmək haqqı səviyyəsini xarakterizə edən göstərici necə adlanır?

a) Nominal əmək haqqı; b) Real əmək haqqı; c) Xalis məsrəf;

4. İşçinin öz nominal əmək haqqına faktiki nə qədər istehlak malları ala biləcəyini və xidmətlər ediləcəyini xarakterizə edən göstəriciyə statistikada nə ada verirlər?

a) Real əmək haqqı; b) Nominal əmək haqqı; c) Ümumi gəlir;

5. Verilənlərdən hansı real əmək haqqının dinamikasını göstərən indeks hesab edilir?

a) $I_{r.ə.h.} = \frac{I_{n.ə.h.}}{I_{p.}}$; b) $I_{n.ə.h.} = \frac{I_{r.ə.h..}}{I_{p}}$; c) $I_{r.ə.h.,} = \frac{I_{p.}}{I_{n.ə.h.}}$;

6. Nominal əmək haqqı indeksinin pulun alıcılıq qabliyyəti indeksinə hasili nəyi anladır?

a) Real əmək haqqının dinamikasını; b) Nominal əmək haqqının dinamikasını; c) Qiymət indeksini;

7. Real əmək haqqı indeksinin 0.85, nominal əmək haqqı indeksinin 1.25 olduğunu bilərək qiymət indeksini hesablayın:

a) 1.47; b) 1.48; c) 1.55;

8. Real əmək haqqı indeksinin 1.35, qiymət indeksinin 0.98 olduğunu bilərək nominal əmək haqqı indeksini hesablayın:

a) 1.323; b) 1.48; c) 1.51;

9. Nominal əmək haqqı indeksinin 1.05, real əmək haqqı indeksinin 1.45 olduğunu bilərək pulun alıcılıq qabliyyəti indeksini hesablayın:



a) 1.38; b) 1.41; c) 1.52;

10. I rübə nisbətən II rübdə mal və xidmətlərin qiymətinin 5 % artdığını bilərək pulun alıcılıq qabliyyəti indeksini hesablayın:

a) 0.95%; b) 0.98; c) 1.06;

11. 2000-ci illə müqayisədə 2001-ci ildə mal və xidmətlərin qiymətinin 2% aşağı düşdüyünü bilərək pulun alıcılıq qabliyyətini hesablayın:

a) 1.02; b) 1.05; c) 1.12;

12. Qocalıqla, xəstəliklə, əmək qabliyyətini tam və qismən itirməklə ailə başçısını itirməklə əlaqədar vətandaşların maddi təminatına yönəldilən dövlət və ictimai təbrilər sistemini özündə birləşdirən kateqoriya necə adlanır?

a) Əhalinin sosial təminatı; b) Əhalinin şəxsi istehalakı; c) Yığım;

13. Əhalinin pensiya təminatı nəyin hesabına həyata keçirilir?

a) Dövlət büdcəsi hesabına; b) Şəxsi vəsait hesabına; c) Ümumi gəlir hesabına;

14. Verilənlərdən hansı sosial təminatın əsas növlərinə aid edilir?

a) Pensiya; b) Müxtəlif növ yardımlar; c) Hər ikisi;

Ev təsərrüfatlarının pul gəlirləri və xərcləri haqqında aşağıdakı şərti məlumat verilmişdir (mln. manat):

1.Gəlirlər ------------ 500;
2.Əmək gəlirləri -------200;
3.Sosial transfertlər ---300;
4.Xərclər ----------------- 600;
5.Ərzağa yönəldilən xərclər – 450;
6.Qeyri-ərzaq mallarına yönəldilən xərclər --- 150;

Bunlara əsasən hesablayın (15-19):

15. Əmək gəlirlərinin ümumi gəlirdə xüsusi çəkisini:

a) 40% ; b) 30% ; c) 20%;

16. Sosial transfertlərin ümumi gəlirdə xüsusi çəkisini:

a) 60%; b) 70%; c) 80%;

17.Ərzağa yönəldilən xərcələrin ümumi xərclərdə xüsusi çəkisini:

a) 75%; b) 65%; c) 35%;



18. Qeyri-ərzaq mallarına yönəldilən xərclərin ümumi xərclərdə xüsusi çəkisini:

a) 25% ; b) 35%; c) 65% ;

19. Ev təsərrüfatlarının pul gəlirləri və xərcləri balansının saldosunu (artıqlığını və əksikliyini):
a) -100 mln. manat; b) 120 mln. manat; c) -110 mln. manat;

20. Pensiya alanların orta illik sayının 1.2 mln. nəfər, pensiyanın umumi məbləğinin 84 mlrd. manat olduğunu bilərək pensiyanın orta həcmini hesablayın:

a) 70 min manat; b) 80 min manat; c) 90 mln. manat;

Pensiya alanların ümumi sayının 500 min nəfər, o cümlədən yaşa görə 200 min nəfər, əlilliyə görə 100 min nəfər, ailə başçısını itirməklə əlaqədar 150 min nəfər, uzunmüddət xidmətə görə 50 min nəfər olduğunu bilərək aşağıdakıları hesablayın:

21. Yaşa görə pensiya alanların xüsüsi çəkisini:

a) 40%; b) 30%; c) 25%;

22. Əlilliyə görə pensiya alanların xüsusi çəkisini:

a) 20%; b) 25%; c) 45%;

23. Ailə başçısını itirməklə əlaqədar pensiya alanların xüsusi çəkisini:

a) 30%; b) 46%; c) 56%;

24. Uzunmüddət xidmətə görə pensiya alanların xüsusi çəkisini:

a) 10%; b) 20%; c) 30%;

25. Fərdi istehlak səviyyəsini xarakterizə edən göstəriciyə statistikada nə ad verirlər?

a) Əhalinin hər nəfərinə düşən istehlak; b) Əhalinin hər nəfərinə düşən ümumi gəlir; c) Ümumi gəlir;

26. Əhalinin hər nəfərinə düşən faktiki istehlak səviyyəsinin fizioloji istehlak normasına nisbətindən alınan göstərici necə adlanır?

a) İstehlakın ödənilmə əmsalı; b) İstehlakın artım əmsalı; c) Fondverimi əmsalı;

27. Ət məhsulları üzrə fərdi istehlak səviyyəsinin 46 kq, fizioloji istehlak normasının 58kq olduğunu bilərək bu məhsul üzrə istehlakın ödənmə əmsalını hesablayın:

a) 0.793; b) 0.893; c) 0.95;



28. Statistikada ayrı-ayrı məhsullar üzrə istehlakın dinamikasının öyrənmək üçün hansı göstəricidən istifadə olunur?

a) İstehlakın fərdi indeksindən; b) İstehlakın ümumi indeksindən; c) Mütləq artım əmsalından;

29. Verilənlərdən hansı istehlakın fərdi indeksinin düsturudur?

a) $i_{i.f.h.} = \frac{q_1}{q_0}$; b) $i_{i.f.h.} = \frac{z_1}{z_0}$; c) $i_{i.f.h.} = \frac{r_1}{r_0}$;

30. I rübdə süd və süd məhsullarının istehlakının 68 kq, II rübdə 88 kq olduğunu bilərək istehlakın fiziki həcm indeksini hesablayın:

a) 1.294; b) 1.394; c) 1.485;

31.İstehlak edilmiş məhsulların həcminin əhalinin orta illik sayına bölünməsindən alınan göstərici nəyi anladır?

a) Hər nəfərə düşən istehlakın orta həcmini; b) Hər nəfərə düşən istehlakın mütləq artımını; c) Yaxınlaşma əmsalını;

32. İl ərzində şəkər istehlakının 8 mlrd kq, əhalinin sayının 200 mln. nəfər olduğunu bilərək hər nəfərə düşən şəkər istehlakının orta həcmini hesablayın:

a) 40 kq; b) 30 kq ; c) 45 kq;

33. İstehlakın fiziki həcm indeksinin 0.95, əhalinin orta sayı indeksinin 1.06 olduğunu bilərək orta istehlak indeksini hesablayın:

a) 0.896; b) 0.899; c) 0.996;

34. Verilənlərdən hansı ilə istehlakın fiziki həcminin fərdi indeksini hesablamaq olar?

a) $i_{\text{hər nəf.}} = i_{\text{i.f.h.}} : i_{\bar{S}}$; b) $i_{\text{hər nəf}} = i_{\text{h.}} : i_{\bar{S}.}$; c) $i_q = p_0 : p_1$;

35. $\sum q_1 p_0$ -in 1500 mln. manat, $\sum q_0 p_0$-in isə 2500 mln. manat olduğunu bilərək istehlakın fiziki həcm indeksini hesablayın:

a) 0.6; b) 0.7; c) 0.68;

Əhaliyə göstərilən xidmətlərin umumi dəyərinin 4600 mln. manat, o cümlədən pulsuz xidmətlərin 2200 mln. manat, pullu xidmətlərin 2400 mln. manat əhalinin orta illik sayının 32 min nəfər olduğunu bilərək aşağıdakıları hesablayın (36-40):

36. Pulsuz xidmətlərin ümumi xidmət dövriyyəsində xüsusi çəkisini:

a) 47.8; b) 46.7; c) 45.0;



37. Pullu xidmətlərin umumi xidmət dövriyyəsində xüsusi çəkisini:

a) 52.2; b) 53.7; c) 55.0;

38. Əhalinin hər nəfərinə düşən xidmətin ümumi dəyərini:

a) 143750 manat; b) 148750 manat; c) 158761 manat;

39. Əhalinin hər nəfərinə düşən pulsuz xidmətlərin dəyərini:
a) 68750 manat; b) 69750 manat; c) 78720 manat;

40. Əhalinin hər nfərinə düşən pullu xidmətlərin dəyərini:

a) 7500 manat; b) 76800 manat; c) 77837 manat;

41. Xidmətlər istehlakının fərdi indeksinin 0.66, adambaşına xidmətlər istehlakının fərdi indeksinin 0.76 olduğunu bilərək əhalinin orta sayı indeksini hesablayın:

a) 0.868; b) 0.988; c) 0.105;

42. Xidmətlər istehlakının fərdi indeksinin 1.28, əhalinin orta sayı indeksinin 1.22 olduğunu bilərək

adambaşına xidmətlər istehlakının fərdi indeksini hesablayın:

a) 1.049; b) 1.149; c) 1.028;

43. Verilən düsturlardan hansı ilə adambaşına xidmətlər istehlakının fərdi indeksini hesablamaq olar?

a) $i_{\text{hər nəf.}} = i_{\text{xidmət.}} : i_{\bar{S}.}$; b) $i_{\text{hər nəf}} = i_q : i_p$; c) $i_q = \frac{q_1}{p_0}$;

44. $\sum y_1 p_0$-in 7555 mln. manat, $\sum y_0 p_0$-in isə 8925 mln. manata bərabər olduğunu bilərək xidmətlər istehlakının ümumi indeksini hesablayın:

a) 0.846; b) 0.955; c) 0.905;

45. Mənzil xidməti statistikasında orta hesabla bir nəfərin ümumi yararlı sahə ilə təminatını xarakterizə etmək üçün hansı göstəricidən istifadə edilir?

a) Məskunluğun orta sıxlığından; b) Məskunluğun mütləq artımından; c) Kənarlaşma əmsalından;

46. Mənzil fondunun əhalinin sayına bölünməsindən alınan göstərici nəyi göstərir?



a) Əhalinin mənzillə təmin olunması dərəcəsini; b) Əhalinin mənzillərinin abadlığını; c) Əhalinin qeyri-yaşayış fondunu;

47. Verilənlərdən hansı əhalinin mənzillə təmin olunması səviyyəsini xarakterizə edən göstəricilərə aid edilir?

a) Məskunlaşmanın sıxlığı; b) Mənzillərin təcrid olunma dərəcəsi; c) Bunların hər ikisi;

48. Məişət xidmətinin ümumi həcminin əhalinin orta illik sayına bölünməsindən alınan göstərici nəyi anladır?

a) Əhalinin hər nəfərinə düşən məişət xidmətinin orta həcmini; b) Əhalinin hər nəfərinə düşən yşjuşə naüşnjkjk həcmini; c) Əhalinin hər nəfərinə düşən mənzil sahəsinin həcmini;

49. Məişət xidməti müəssisələrinin sayını 10000-ə vurub əhalinin orta illik sayına böldükdə alınan göstərici nəyi xarakterizə edir?

a) Hər 10000 nəfərə düşən məişət xidməti müəssisələrinin sayını; b) Hər 1000 nəfərə düşən məişət xidməti müəssisələrinin sayını; c) Əhaliyə məişət xidmətinin orta həcmini;

50. Verilənlərdən hansı nəqliyyat xidməti statistikasının göstəricilərinə aid edilir?

a) Sərnişin dövriyyəsi, əhalinin hərəkətetmə əmsalı, sərnişinin orta hərəkəti sürəti, daşımanın orta məsafəsi; b) Sərnişin dövriyyəsi, işdəngetmə əmsalı, həkimlərin sayı; c) Daşımanın orta məsafəsi, əhalinin hərəkətetmə əmsalı, xarici ticarət dövriyyəsi;

51. Verilənlərdən hansı rabitə xidməti statistikasının göstəricilərinə aid edilir?

a) Rabitə xidmətinin ümumi həcmi, əhalinin 100 min nəfərinə düşən poçt göndərmələrinin sayı, telefonla təmin olunmuş mənzillərin sayı; b) Əhalinin hər 1000 nəfərinə düşən telefon aparatlarının sayı, bir rabitə müəssisəsinin xidmət etdiyi əhalinin sayı, texniki boşdayanma (fasilə) hadisələrinin sayı və boşdayanmalarını uzunluğu; c) Bunların hamısı;

52. Səhiyyə sahəsində baş verən prosesləri sosial statistikanın hansı bölməsi öyrənir?

a) Səhiyyə statistikası; b) əhali statistikası; c) İncəsənət və səhiyyə statistikası;

53. Ayrı-ayrı xəstəliklərin sayının xəstələnmələrin ümumi sayına nisbətindən alınan göstərici nəyi xarakterizə edir?

a) Xəstələnmənin quruluşunu; b) Xəstələnmənin azalmasını; c) xəstələnmənin artmasını;



54. Müvəqqəti əmək qabliyyətini itirmə hadisələrinin sayının işçilərin orta siyahı sayına nisbətinin 1000-ə hasili nəyi anladır?

a) Hər 1000 işçiyə düşən əmək qabliyətini itirmə halarının sayını; b) Hər 100 işçiyə düşən xəstələnmənin orta müddətini; c) Xəstələnmənin orta artımını;

55. Müvəqqəti əmək qabliyyətin itirənlərin təqvim günlərinin sayının işçilərin orta siyahı sayına nisbətinin 100-ə vurulmasından alınan göstəriciyə statistikada nə ad verirlər?

a) Hər 100 işçiyə düşən əmək qabliyyətini itirmə günlərinin sayı; b) Hər 100 işçiyə düşən əmək qabliyyətini itirmə günlərinin mütləq artımı; c) xəstələnmənin quruluşunu;

56. Müvəqqəti əmək qabliyyətini itirənlərin təqvim günlərinin sayının bu hadisələrin ümumi sayına nisbəti nəyi anladır?
a) Xəstələnmənin orta müddətini; b) Xəstələnmənin nisbi artımını; c) Xəstələnmənin nisbi artımını;

Aşağıdakı şərti məlumat verilmişdir:

1.İşçilərin orta siyahı sayı, nəfər ----- 800;
2.Müvəqqəti əmək qabliyyətini itirmə hallarının sayı ------------------------------- 600;

3.Müvəqqəti əmək qabliyyətini itirmə günlərinin sayı ---------------------- --- 4800;

Bunlara əsasən hesablayın (57-59):

57. Hər 100 işçiyə düşən əmək qabliyyətini itirmə hallarının sayını:
a) 75; b) 85; c) 46;

58. Hər 100 işçiyə düşən əmək qabliyyətini itirmə günlərinin sayını:

a) 6 gün; b) 7 gün; c) 8 gün;

59. Xəstələnmənin orta müddətini:

a) 8 gün; b) 9 gün; c) 12 gün;

60. Verilənlərdən hansı əhalinin tibbi müəssisələri və həkimlərlə təminatını səciyyələndirən göstəricilərə aid edilir?

a) Əhalinin hər 10000 nəfərinə düşən xəstəxana çarpayılarının və həkimlərin sayı; b) Əhalinin hər 10000 nəfərinə düşən orta tibbi işçilərinin sayı; c) Bunların hamısı;

61. İdmanla məşğul olanların sayının 1500 min nəfər, əhalinin saynın 7500 min nəfər olduğunu bilərək idmanla məşğul olanların xüsusi çəkisini hesablayın:



a) 20%; b) 30%; c) 25%;

62. İdmanla məşğul olanların sayının 1500 min nəfər, dərəcəli idmançıların idmanla məşğul olanlarda xüsusi çəkisinin 15% olduğunu bilərək onların sayını hesablayın:

a) 225 min nəfər; b) 235 min nəfər; c) 400 min nəfər;

63. Əhalinin saynın 5000 min nəfər, savadlı əhalinin sayının 2500 min nəfər olduğunu bilərək savadlılıq səviyyəsi göstəricisini hesablayın:

a) 50%; b) 60%; c) 70%;

64. Verilənlərdən hansı məktəbəqədər uşaq müəssisələrinin fəaliyyətini səciyyələndirən göstəricilərə aid edilir?

a) Bir nəfər tərbiyəçiyə düşən uşaqların sayı, məktəbəqədər uşaq müəssisələrində yerləşdirmək üçün ehtiyacı olanların sayı; b) Bağçada və körpələr evində orta hesabla bir nəfər uşağa çəkilən xərcin miqdarı, məktəbəqədər uşaq müəssisələrinə gedənlərin tərkibində şəhər və kənd uşaqlarının xüsusi çəkisi; c) Bunların hamısı;

65. İlin əvvəlinə məktəbəqədər daimi uşaq müəssisələrində olan uşaqların sayının 900 min nəfər, ilin əvvəlinə 1 yaşdan 6 yaşa qədər (6 yaş da

daxil olmaqla) olan bütün uşaqların sayının 2 mln. nəfər, 6 yaşında umumi təhsil məktəblərində oxuyan uşaqların sayının 200 min nəfər olduğunu bilərək uşaqların məktəbəqədər müəssisələrlə təminatı göstəricilərini hesablayın:

a) 50%; b) 30%; c) 55%;

66. Ümumitəhsil məktəblərində oxuyan uşaqların sayının uşaqların umumi sayına bölünməsindən alınan göstərici nəyi səciyyələndirir?

a) Uşaqların məktəbə cəlb olunması vəziyyətini; b) Uşaqların məktəbdən çıxma vəziyyətini; c) Məktəb yaşından olan uşaqların azalmasını;

67. Ümumtəhsil məktəblərinin sayının 600, əhalinin sayının 800 min nəfər olduğunu bilərək əhalinin 10000 nəfərinə düşən ümumtəhsil məktəblərinin sayını hesablayın:

a) 75; b) 60; c) 72;

68. Ali və orta ixtisas müəssisələrində təhsil alan tələbələrin sayının 240 min nəfər, əhalinin sayının 8000 min nəfər olduğunu bilərək əhalinin hər 10000 nəfərinə düşən tələbələrin sayını hesablayın:

a) 300 nəfər; b) 400 nəfər; c) 330 nəfər;



69. Dövlət büdcəsindən təhsilə yönəldilən xərcin 550 mlrd. manat, tələbələrin sayının 250 min nəfər olduğunu bilərək hər tələbəyə düşən xərcin məbləğini hesablayın:

a) 220 min manat; b) 230 min manat; c) 500 min manat;

70. Verilənlərdən hansı kitabxana statistikasının göstəricilərinə aid edilir?

a) Ümumi kitabxanaların sayı, orta hesabla bir kitabxanaya düşən kitab və jurnalların sayı, orta hesabla bir kitabxanaya düşən əhalinin sayı; b) Bir nəfər sakinə və ya oxucuya düşən kitab və jurnalların sayı, əhalinin hər 10000 nəfərinə düşən kitabxanaların sayı; c) Bunların hamısı;

71. Bütün kitabxanaların sayının 500 min, əhalinin sayının 8 mln. manat olduğunu bilərək əhalinin hər 10000 nəfərinə düşən kitabxanaların sayının hesablayın:

a) 625; b) 630; c) 640;

72. İl ərzində oxucuların sayının 400 min nəfər, onlara verilən kitab və jurnalların sayının 800 min ədəd olduğunu bilərək bir nəfər oxucuya verilən kitab və jurnalların sayını hesablayın:

a) 2; b) 3; c) 4;

İstirahət parklarının sayının 3000, ora gələnlərin sayının 450 min nəfər, əhalinin ümumi sayının 6000 min nəfər olduğunu bilərək aşağıdakılırı hesablayın (73,74):

73. Əhalinin hər 10000 nəfərinə düşən istirahət parklarının sayını:

a) 5; b) 6; c) 7;

74. İstirahət parklarına gələnlərin ümumi əhalidə xüsusi çəkisini:

a) 7.5%; b) 8.5%; c) 6.7%;

Ölkədə nəşr olunan qəzetlərin sayının 6000, jurnalların sayının 1500, əhalinin sayının 5 mln. nəfər olduğunu bilərək aşağıdakıları hesablayın (75.76):

75. Əhalinin hər 10 min nəfərinə düşən qəzetlərin sayını:

a) 12; b) 13; c) 12.8;

76. Əhalinin hər 10000 nəfərinə düşən jurnalların sayını;

a) 3; b) 4; c) 6;



77. Verilənlərdən hansılar incəsənət statistikasının göstəricilərinə aid edilir?

a) Əhalinin hər 1000 nəfərinə düşən kinoteatrların və tamaşaçı yerlərinin sayı, b) Əhalinin hər 1000 nəfəri hesabı ilə kinoya gedənlərin sayı; c) Bunların hamısı;

# ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı 1995.
2. A.C. Məmmədov. Sosial-iqtisadi statistika. Dərs vəsaiti. Bakı 2000.
3. S.M.Yaqubov. Sosial statistika. Dərs vəsaiti. Bakı 1995.
4. R.Ş.Məmmədov. Milli Hesablar Sistemi. Dərs vəsaiti. Bakı 1997.
5. R.Ş.Məmmədov. Beynəlxalq statistika. Dərs vəsaiti. Bakı 1999.
6. Курс социально-экономической статистики. Учебник. Под ред. Проф. М.Г.Назарова. М.Финансы и статистика. 2000.
7. Экономическая статистика. Учебник под. ред. проф. Ю.Н.Иванова. М.1998.
8. Гусаров В.Н. Статистика. Учебное пособие. М.2001.
9. Экономика и статистика фирм. Учебник. Под.ред. проф. С.Д. Ильенковой. М. Финансы и статистика. 1996
10. Статистика рынка товаров и услуг. Учебник. Под.ред. проф.И.К.Беляевского. М. Финансы и статистика. 1995.
11. Социальная статистика. Учебник. Под. ред. чл. корр. РАН И.И.Елисеевой. М.Финансы и статистика. 1997.





12. И.Е.Теслюк. Статистика финансов. Учебное пособие. Минск 1994.
13. Практикум по социально-экономической статистике. Под ред. И.Е.Теслюка. Минск. 1998.
14. Долженкова В.Г. Статистика цен. Учебное пособие. М.2000.
15. S.M.Yaqubov, Ə.İ.Əliyev. Xarici iqtisadi əlaqələr statistikası və tədiyyə balansı. Metodik göstəriş, Bakı 2001.
16. S.M.Yaqubov, Ə.İ.Əliyev,M.Ə.Yusifov Əhali statistikası.Dərs vəsaiti, Bakı 2002.

# MÜNDƏRİCAT

GİRİŞ ---------- 3
1.Sosial-iqtisadi statistikanın predmeti, metodu, vəzifələri və göstəricilər sistemi ---------- 4
2. Əhali statistikası ---------- 8
3. Məşğulluq və işsizlik statistikası ---------- 14
4. Əmək məhsuldarlığı və əmək ödənişi statistikası --- 24
5. Milli sərvət statistikası ---------- 36
6. Milli hesablar sistemi (MHS) və əsas makroiqtisadi göstəricilər ---------- 43
7. Qiymət, tariflər və inflyasiya statistikası statistikası 53
8. Maliyyə statistikası ---------- 59
9. Bank statistikası ---------- 65
10.Xarici iqtisadi əlaqələr (XİƏ) statistikası ---------- 68
11.İstehsal, tədavül xərcləri və səmərəlilik statistikası 76
12.Əhalinin həyat səviyyəsi və sosial sferanın statistikası ---------- 89
ƏDƏBİYYAT ---------- 108

**Çapa imzalanıb, 26.05.2001- ci il.**
**Kağız formatı 60x84,**
**Şərti çap vərəqi 7. Sifariş 6, sayı 200.**

**XKB – nın mətbəəsi**